# *Allahın sevgisi*

## *Allah dünyada Onu sevənlərə sevgisini necə izhar edir?*

*Birinci: Allah haqqında işlənən sevgi sözü adi danışıqda işlənən sevgi sözü ilə eyni mənanı daşımır. Çünki bu mənanın şərti nəfsani reaksiyadır ki, Allah ondan pakdır ("Ehya ülum əd-din", c. 4, səh. 302-303). Onun sevgisi zatına, öz kamalına sevgidən irəli gəlir.*

*Lakin bu sevginin izharı Allahın bəndələrinə mərhəmət göstərməsi, lütf etməsi ilə gerçəkləşir. Başqa sözlə, Allah bir bəndəsinə sonsuz rəhməti ilə lütf etdikdə əslində ona sevgisini göstərir ("Ərbəin", səh. 390).*

*İkinci: Bir sıra ayə və rəvayətlərə, alimlərin sözlərinə görə, Allahın bəndələrinə sevgisinin əlamətlərini, nişanələrini əldə etmək olar. Əgər Allahın dünyada insanlara, Onu sevənlərə necə qarşılıq verdiyini, sevgi göstərdiyini görmək istəsək, Onun bəndələrinə sevgisinin nişanələrini aydınlaşdırmalı və Onun dostlarından, sevdiklərindən olub olmadığımızı bilməliyik. Biz də Allahın sevdiklərindənikmi? Allah bu nişanələri göstərməklə bizə də sevgi göstərmişdir ya yox?*

*Allahın bəndələrinə sevgi nişanələrinin bəzisi aşağıdakılardır:*

*1. Allahı sevməyə müvəffəq etməsi; ("Mizan əl-hikmə", c. 1, səh. 224)*

*2. İtaətə müvəffəq etməsi; (Yenə orada )*

*3. İnsanın eyblərini ört-basdır etməsi; (Yenə orada, səh. 223)*

*4. Əmanətdarlığı sevdirmək; (Yenə orada, səh. 222)*

*5. Doğruçuluğu və sədaqəti təlqin etməsi; (Yenə orada, səh. 223)*

*6. Bilik və elmi xatırlatması; (Yenə orada)*

*7. Təskinlik və dözümlülük bəxş etməsi; (Yenə orada, səh. 223)*

*8. İnsanın qəlbində dünyaya nifrət oyatması; (Yenə orada)*

*9. Ehtiyacı olduğu qədər bəxş etməsi; (Yenə orada, səh. 223)*

*10. Əxlaqını yaxşılaşdırması və sağlam qəlb əta etməsi (Yenə orada, səh. 124. Ətraflı məlumat üçün bax: "Ətf əl-əlif", səh. 89-94).*

*Demək, həzrət Peyğəmbər (s) Allahın sevgi göstərdiyi ən yaxşı şəxslərdən olmuşdur (Bax: "İnsani-kamil").*

# HƏCC ZİYARƏTİNİN HACININ MƏNƏVİ İNKİŞAFINDAKI TƏSİRİ



"Həcc" ziyarəti, İslam dininin müsəlmanlara vacib buyurduğu ən əhəmiyyətli ibadətlərdən biridir. Həcc ziyarətinin vacib olması olduqca mühüm və dolğun fəlsəfəyə malikdir. Dini mənbələrimizdə həccin fəlsəfəsinə və bir sıra faydalarına işarə edilir: Həcc Allaha tərəf ucalmaq və Onun hüzurunda hazır olmaqdır. Həqiqi həcc ziyarətçilərdə köklü dəyişikliklər yaradır. Çünki həccin əməlləri təqva ruhiyyəsi yaradır və özünü tərbiyəyə səbəb olur. Bu əsaslı dəyişiklik keçmiş əməllərə görə peşmanlıq və özünə qayıdışdır. Elə bir qayıdış ki, yenidən başlamağa və keçmiş ziyanları islah etməyə səbəb olur. Həcc, qaranlıq və günahla dolu keçmişdən tövbə etmək və gələcək üçün yaxşı işləri yenidən başlamaqdır.

Bəli, həcc ziyarəti, insan ruhunda böyük dəyişkliklər qoymalıdır. Çünki, həcc, özünü islah üçün çalışmaqdır. Həcc, bədəni çətinliyə salmaq, qadın və övladdan uzaq olmaq, ruha şəhvətləri və nəfsani işləri qadağan etməkdir.

Bu ziyarət zamanı, insana qoyulan qadağalar ona dünyaya həris olmamağı və hər bir şeyin fani olmasını xatırladır:

Ehram halında bir neçə tikə parçadan ibarət libas geyən insan, sanki izdihamla birgə məhşərə doğru tələsir. Bir sıra dünyəvi nemətlərdən uzaq olaraq, xoş qoxulardan uzaqlaşıb, gün istisindən kölgəyə sığınmağın belə qadağan edildiyi bir şəraitdə nəfsini sınağa çəkir.

Bu günlər, Məkkəyə həcc ziyarətinə gedən zəvvarlar qurban kəsməkdən əlavə, şeytanı da daşlayırlar, hökmə uyğun olaraq saçlarını qırxırlar...

Şeytanın daşlanması, bir növ insanın şeytani hislərini, istəklərini daşlaması deməkdir. Tövbədir... Qayıdışdır... Peşmançılıqdır... Pis xüsusiyyətlər və çirkin niyyətlərlə mübarizədir. Cihaddır... İnsanın pis əməllərinə savaş başlatmasıdır.

Kəsilən qurbanlar, nəfsin napak istəklərini və rəzil xüsusiyyətlərinin məhv edilərək, Allah qarşısında insanın bütünlüklə təslim olması və özünü Uca Yaradanın ixtiyarına verdiyini bəyan edərək, "ruhunu qurban" verməsidir. Kəsilən qurbanlar, təkcə maddi cəhətdən səxavət hissini oyatmaq deyil, mənəvi hisslərin; rəhmət, mərhəmət, güzəşt, bağışlamaq, yardım etmək, qayğı göstərmək, laqeyd qalmamaq, ürək sevindirmək, kiçik bir təbəssümü və xoş rəftarı insanlardan əsirgəməmək deməkdir. Bəndənin Tanrı qarşısında dəyişildiyinə söz verməsi və artıq hər bir şeyinin Onun razılığı yolunda fəda etdiyini izhar etməsidir.

Saçlarını qırxan hacı, əsl həqiqətdə, zahiri gözəlliyin fani olduğunu anladığını və onun ilahi-insani hisslər müqabilində dəyər daşımadığına inandığını söyləyir. Bədəninin cismi gözəlliyini kənara atmaqla, dünya bər-bəzəklərinin artıq onun üçün, mənəvi gözəlliyin, insani duyğuların müqabilində dayanmadığını, doğrusu ona xidmət etməli olduğunu bəyan edir.



Həcc ziyarəti zamanı, insanlar Peyğəmbərin (s) və dəyərli səhabələrin müxtəlif çətinliklərlə islam dinini müdafiə edib, qoruyub saxladığı məkanları görür və tarixi sanki bir daha göz önündən keçirərək canlandırır.

"Həcc" ziyarəti müsəlmanların müxtəlif ölkələrdən olmasına baxmayaraq onların bir-birilə tanış olub, dərdlərini bölüşüb, birləşmə ruhiyyəsinin də əsas səbəbidir. Bir sözlə, həqiqi həcc ziyarəti vəhdət ruhunu dirçəldir.

Həcc, sərvəti bir-birindən ayırmaq və zəifləri və fəqirlərin haqqını ödəməkdir. Həcdən qabaq zəkat və xumsu ayırmaq, ilahi vacib yerinə yetirməkdən əlavə, insanın ətrafına diqqət etməsinə və Allahın onun öhdəsinə qoyduğu haqqı əda etməyə səbəb olur.

Hacılar, Tanrı evini ziyarət etməklə, millətindən və vəzifəsindən asılı olmayaraq, oradakı çətinliklərə birgə qatlanmaqla, anlayır ki, qiyamət günü Allah-təala hüzurunda hesab verərkən, dünya malının ona heç bir yardımı toxunmayacaqdır. Buna görə də, həcc əməlləri sanki qiyamət gününü canlandırır və hacılar bu əməlləri icra edərkən ən böyük və mühüm dərsi öyrənmiş olur.

**Dr. Əfzələddin Rəhimli**

# ƏRƏFƏ GÜNÜ ALLAHIN ÖZ DİNİNİ TAMAMLADIĞI GÜNDÜR

## *Ərəfə günü Allahın ən çox sayda insanı Cəhənnəmdən azad etdiyi gündür*

***Məlum on iki aydan dördünü haram edən Allah bunların arasında Zilhəccəni də seçmişdir. Zilhəccə ayının 10 günü xüsusilə fərqlənir. Bu on günün içərisində daha fəzilətlisi isə Ərəfə günüdür. Zilhəccənin 9-cu günü kimliyindən, rütbəsindən, mənsəbindən, var-dövlətindən asılı olmayaraq hər bir insan ehram geyinərək burada toplanır. Ehramlı olmaq Allahın ziyarət edilməsini göstərdiyi yerləri ziyarət edən şəxsin əldə etdiyi xüsusi vəziyyətdir. Buna görə, hacı ona halal olan bir çox şeyi etməkdən məhrumdur. Məsələn, dırnaq və tükləri kəsmək, ətir vurmaq, evlənmək, zövcəsi ilə yaxınlıq etmək, nalayiq sözlər sərf etmək, qışqırıb-bağırmaq, mübahisə etmək, ayaqqabı geymək, ağac kəsmək, ov etmək və s. Burada həcc ibadəti özünün ən yüksək zirvəsinə yüksəlir. Hacılar Ərəfat dağına yollanır, orada öz arzu və istəklərini Allaha bildirir, düşünürlər.***




**Ərəfat ərəbcə "ərəfə" felindən əmələ gəlmişdir və mənası dərk etmək, anlamaq deməkdir.**

Ərəfat Həzrət Cəbrayılın (Ona salam olsun!) Həzrət İbrahimi Məkkənin ətrafındakı "Həram" bölgədə gəzdirərək, ona həccin bütün rüknlərini öyrətdiyi və Adəmin Həvva ilə görüşdüyü yerdir. Ehramını geyinib Məkkədən çıxan insan şərqə – Ərəfata doğru yola çıxır. Yerin ən bəsit parçasından – torpaqdan yaradılan və yer üzünün xəlifəsi olan insan öz hərəkətlərinə biliklə başlayıb. İnsan daha sonra öyrəndiklərini yaxşıca dərk edib. İnsan qismən palçıqdan, qismən də Allahın bəxş etdiyi ruhdan yaradıldığı üçün onun iradəsi və əzmi palçıqdan Allahın bəxş etdiyi ruha hicrət etməyə yardımçı olacaqdır. Ərəfat buradakı üç mərhələdən ilkidir. Digər mərhələlər isə Məşərül-həram və Minadır.

Ərəfat bir günlük ziyarət məkanıdır. İnsan burada gün batanadək dualarını Allaha ərz edir. Milliyyətindən, dilindən, mənsəbindən asılı olmayaraq insanlar – Allahın bəndələri bir araya gəlirlər. Burada insan düzənlik, qum və ümmandan başqa heç nə görmür. Günəşin şəfəqləri altında insan acizliyini dərk edir, Allahın birliyini, yaradıcı və hər şeyin sahibi olduğunu, bir gün yenə Ona qayıdacağını düşünür:

"Biz Allahdanıq (Allahın bəndələriyik) və (öləndən sonra) Ona tərəf (Onun dərgahına) qayıdacağıq" (əl-Bəqərə, 156).

Peyğəmbər (Allahın salamı olsun Ona və pak Əhli-beytinə) bir hədisində: "Allah Ərəfə günündə olduğu qədər heç bir gündə qullarını atəşdən azad etməyib" – deməklə bundan dolayı şeytanın rəzil olduğunu bildirib: "Şeytan Ərəfə günündə olduğu kimi heç bir gündə bundan daha alçalmış, daha qəzəbli görkəmdə olmaz. Buna səbəb onun Allahın rəhmətinin endiyini və Allahın böyük günahları bağışladığını görməsidir". Ərəfə həm də Allahın Ərəfə günü yaranan mənzərəyə görə, mələklərin qarşısında fəxr etdiyi gündür.

Ərəfə günü Uca Allah nəinki Ərəfatda olanları bağışlayır, hətta orada olmayan, dünyanın dörd bir tərəfində məhz Ərəfə günü dua edib bağışlanma diləyən müsəlman qullarını da bağışlayar. Elə isə həcdə olmayanlar bu gündə ibadətlərini artırsınlar!

Ərəfə günü oruc tutmağı da yenə Peyğəmbərimiz (Allahın salamı olsun Ona və pak Əhli-beytinə) tövsiyə edib: "Bu günün orucu bir ilin günahlarına kəffarədir".

Günəş batarkən, Ərəfatda durma sona çatır. Artıq qaranlıqdır və nəyi isə görmək qeyri-mümkündür. Buna görə də nə bilik, nə də hikmətdən söz gedə bilər. Ərəfatda günəşin batması ilə insanlar günbatana, qərbə - Məşərülhərama yönəlirlər:

"Ərəfatdan qayıdarkən Məşərülhəramda Allahı xatırlayın. Sizi doğru yola yönəltdiyi üçün Onu yada salın (Ona dua edin)" (əl-Bəqərə, 198).

**Nəticə:**

***- Ərəfə günü günlərin ən fəzilətlisidir.***

***- Ərəfə günü Allahın ən çox sayda insanı Cəhənnəmdən azad etdiyi gündür.***

***- Ərəfə günü Allahın yer əhli ilə göy əhli (mələklər) qarşısında fəxr etdiyi gündür.***

***- Ərəfə günü şeytanın ən çox alçaldığı, qovulmuş və qəzəblənmiş olduğu gündür.***

***- Ərəfə günü həcc mərasiminin zirvə nöqtəsinə çatdığı gündür.***

***- Ərəfə günü Zilhəccə ayının seçilmiş mübarək ilk 10 gününün zirvəsidir.***

***- Ərəfə günü edilən dua duaların ən fəzilətlisidir.***

***- Ərəfə günü tutulan oruc bir ilin günahlarına kəffarədir.***

***- Ərəfə günü Allahın öz dinini tamamladığı gündür.***

***- Ərəfə günü Rəsulullahın (Allahın salamı olsun Ona və pak Əhli-beytinə) vida xütbəsi söylədiyi gündür.***

# RƏSULZADƏ QURBAN BAYRAMI HAQQINDA

*"O, yüyürüb qaçmaq (atasına kömək edə bilmək) çağına çatdıqda dedi: "Oğlum! Yuxuda gördüm ki, səni qurban kəsirəm. Gör, nə fikirləşirsən!" O dedi: "Atacan! Sənə nə əmr olunursa, onu da et. İnşallah, məni səbirlilərdən olduğumu görəcəksən!"*

*Onların hər ikisi təslim olduğu və üzüstə yerə yıxdığı zaman Biz ona belə xitab etdik: "Ey İbrahim! Artıq sən röyanın düzgünlüyünü təsdiq etdin!" Biz yaxşı iş görənləri belə mükafatlandırırıq. Şübhəsiz ki, bu, açıq-aydın bir imtahan idi. Biz ona böyük bir qurbanlıq əvəz verdik. Sonradan gələnlər arasında onun üçün (yaxşı ad, gözəl xatirə) qoyduq.*

*İbrahimə salam olsun! Həqiqətən, Biz yaxşı əməl sahiblərini belə mafatlandırırıq! Şübhəsiz ki, o Bizim mömin bəndələrimizdən idi!" (Saffat surəsi, 102-111-ci ayələr)*



Qurban bayramı biz müsəlmanların ən qədim və ən müqəddəs bayramlarından biridir. Bu gün müsəlmanların qardaşlıq əhdini təzələmələri, bir-birinə yaxın olmaları, bir-birinin dərdi-səri ilə yaxından maraqlanıb, hamılıqla problemləri aradan qaldırma günüdür.

Bu günün əhəmiyyəti ziyalılarımızın diqqətindən yayınmır, onların hər biri öz baxışına görə bu bayrama münasibətini bildirir. Əsrin əvvəlində çıxan Azərbaycan mətbuatında böyük ziyalılarımız tərəfindən Qurban bayramı haqqında qiymətli fikirlər səsləndirilib ki, bu zəmində Məhəmmədəmin Rəsulzadənin fikirlərindəki orijinallıq diqqətimi xüsusilə özünə cəlb edir.

Qurban bayramı ilə əlaqədar Rəsulzadə "İqbal" qəzetinin 1914-cü il sayında "Qurban münasibətilə" başlıqlı bir məqalə yazmışdı. Həmin məqalədə onun bayramlara və Qurban bayramına münasibətini öyrənək.

Müəllif əvvəlcə ümumi şəkildə bayramların fəlsəfəsinə toxunur. Bildirir ki, bayramlar millətlər tərəfindən milləti və ümməti yaşatmaq, onun milli və ya dini kimliyini qorumaq üçün qeyd edilir. İnsanlar bayramlar vasitəsilə bir-birinə isinir, aralarında bağlılıq telləri möhkəmlənir. İctimai rabitələrdə insanlar arasında istər-istəməz ixtilaflar, müəyyən qanqaraçılıq və incikliklər yaranır, bir-birinə yadlaşma və bir-birindən uzaqlaşma baş verir. Bayram bu soyuqluqları isinişməyə çevirən, ayrılıqları birləşdirən, ürəklərdə bir-birinə sevgi və səfa yaradan mühüm hadisədir. İnsanlar bayram vaxtı bayramlaşmaq və kütləvi ibadətlərdə iştirak etməklə: "Ruhlanıb özlərinin bir vücudi-vahid olduqlarını düşünmək məcburiyyətində qalıyorlar" və "bir vücudun ayrı-ayrı cüzləri olduqlarını dərk ediyorlar".

Bayramlar, xüsusilə də, müqəddəs dini bayramlar bu ali hissin və məqsədin ən gözəl təminatçısıdır. M. Rəsulzadə qeyd edir ki, bayramın yaşı insanın ictimai həyatının yaşına bərabərdir. İnsanlar bir toplu olaraq yaşadıqları vaxtdan bayram keçirmişlər. Bu qədim bayramlardan biri də Qurban bayramıdır.

İnsanda belə bir xüsusiyyət vardır ki, öz sevdiyinə sevgisini izhar etmək, yaxud, ehtiyac duyduğu ali varlığın vasitəsilə ehtiyaclarını təmin etmək məqsədilə öz dərkinə uyğun şəkildə bir sıra fədakarlıqlara qatlanır. Qədimdə insanlar nadanlıq və cəhalət səbəbilə bəndəlik izhar etmək məqsədilə öz məbudları qarşısında insan qurban edirdilər. Bəzən xurafatlar və yanlış adətlər səmavi din ardıcıllarından da yan keçmirdi. Uca Tanrı insanları istiqamətləndirmək üçün İbrahim peyğəmbərə göstəriş verir ki, bayramda qurban olaraq bir qoç kəssin. O vaxtdan etibarən İbrahim ümməti onun Allah tərəfindən olan bu qaydasını yaşatmışlar.

"İştə 1500 sənədən bəri İbrahim, İsmayıl və Hacərin o sədaqətkaranə və fədakaranə hərəkətlərinin yadigarı olaraq müsəlmanlar hər il milyonlarca heyvan kəsməklə bu vəqəəni (hadisəni — D. Ş.) yad ediyorlar".

Bundan sonra xalqımızın böyük oğlu M. Rəsulzadə Qurban bayramının əsas fəlsəfəsini xatırladır ki, bu olmadıqca bayramın həqiqəti müsəlmanın həyatında öz əksini tapmır, gerçəkləşmir. O nədir? İbrahim ata fədakarlığı! İsmayıl oğul fədakarlığı! Hacər ana fədakarlığı! Özündən keçə bilmək! Malik olduqlarından asılı olmamaq! Əslində qurban kəsmək məsələnin zahiridir, bir simvoldur, bir işarədir, məsələnin həqiqəti və batini fədakarlıqdır: "Fəqət qurban kəsdikləri zaman etiqadini-diniyyə (dini əqidə — D. Ş.) və amali-milliyyə (milli amal — D. Ş.) yolunda İbrahim və İsmayıl qədər fədakarlıq və mətanət lazım gəldiyini əcəba heç düşünüyorlarmı? Heç dərk ediyorlarmı ki, İsmayılın bu qədər şöhrət və ehtiramı ancaq etiqadı və etiqadı yolunda canına belə "of demədiyindən" irəli gəlmişdir?" Bu həqiqəti İslam dininin həqiqətini başa düşən işıqlı ziyalı söyləyə bilər.

Rəsulzadə qeyd edir ki, bu bayram müəyyən bir müsəlman ölkəsi ilə sərhədlənmir. Harada və hansı ölkələrdə müsəlman varsa, onun da bayramıdır. Məlum məsələdir ki, bayram günündə ürəklər şad olur. Ancaq digər İslam ölkələrində hər gün onlarla günahsız müsəlman öldürülürsə və ya şikəst edilirsə, onların yaxınları necə bayram keçirib şadlana bilərlər? Daxili çəkişmələr, məzhəb ixtilafları nəticəsində, yaxud xarici düşmənlərin hücumları səbəbilə öz həyat yoldaşını, övladını, qardaş və bacısını və ya hər hansı bir əzizini itirmiş müsəlmanın qəlbi necə şad ola bilər, üzünə necə həqiqi təbəssüm qona bilər?!

Bu gün müsəlman dünyası qan içindədir, ancaq elə bil bunların bizə aidiyyatı yoxdur. Böyük coşqu ilə bayramlaşırıq və əmin-amanlıq üçün Allaha şükür edirik, digər müsəlman qardaşlarımızı isə yaddan çıxarırıq. İslam ümməti Peyğəmbər ümmətidir, bir bədənin parçalarıdır. İslam bədəni ürəyindən oxlanıb, ancaq "əl-ayaq" şənlənir, sevinir. "Qurban məlum olduğu üzrə ümumi bir müsəlman bayramıdır. Fəqət bu axırıncı illərdə İslam aləmini bürüyən ixtilafati-daxiliyyə və xariciyyədən dolayı bu bayram çox nadirətlə parlaq, hüzuri-qəlb və vicdan ilə keçmişdir. Keçən illərdə müsəlmanlar həzrəti İsmayıl qurbanı zibh edərkən dindaşlarından minlərcə bigünahların necə kəsildiklərini bir növ yaddan çıxara bilməmişdir". Görün, üstündən yüz il keçməsinə baxmayaraq, bu gün də eyni dərdləri yaşayırıq, eyni cəhalətlər təkrarlanır. Bəs bu insan nə vaxt yoluna düzələcək?




Müəllif çox maraqlı məqama toxunur. Deyir ki, indiki insanlar qədim insanın qurbanetmə mərasimini indi fərqli adlarla yaşadırlar. İndi də insanlar milli maraqlar və ya vətənin müdafiəsi adı altında bir-birini "zibh" edirlər: "...insanlar indi o qədim adəti Avropaca və qismən də amali-milliyyə təqibi və vətən müdafiəsi yolunda icra ediyorlar".

Daha sonra müəllif qeyri-müsəlmanların da taleyinə ortaq olur və deyir ki, qeyri-müsəlman qonşularımız keçən il bizi bayram münasibətilə təbrik edirdilər, ancaq bu il onlar yoxdur, müharibəyə qurban getmişlər, başlarına nə gəldiyi bəlli deyil. Onların arvad-uşaqları başsız qalıb. Buna görə də insaniyyət naminə onlara da kömək olunmalıdır. Bu da Rəsulzadənin geniş dünyagörüşü və tolerantlığının bariz göstəricisidir. Maraqlıdır ki, o qeyri-müsəlman ailələrinə kömək etməyi də İslam dininə nisbət verir, bu köməkləşmə və şəfqət duyğusunu müsəlmanlığın tələbi adlandırır. Bu da onun İslamı dərindən mənimsədiyinin daha bir göstəricisidir.

Bu gün bəzi müsəlmanların özünün digər məzhəbdən olan müsəlman qardaşlarını görməyə gözü yoxdur, hər vasitə ilə bir-birilərinə zərər vurmağa çalışır, imkan daxilində bir-birini məhv etməkdən də çəkinmirlər. Bu gün bir çox müsəlman mərkəzləri və məscidləri elə digər nadan müsəlman qardaşların əli ilə partladılır, ibadət məkanları qan gölünə çevrilir. Ancaq işıqlı müsəlman ziyalısı insanlıq naminə qeyri-müsəlmanların da dərdini çəkir.



Əslində isə, Rəsulzadə öz babalarının və İslam rəhbərlərinin yolunun davamçısıdır. Tarix boyu müsəlmanlar yəhudi və xristianlarla birlikdə yaşamışlar və aralarında gərginlik olmamışdır. Ancaq elə ki, fitnəkarlar, maddi marağının, ehtiras və şəhvətinin qulları olanlar "dərələrdən sel kimi, təpələrdən yel kimi" gəlib çıxdılar, din ardıcıllarını və məzhəb qardaşlarını qızışdırıb bir-birilərinin canına saldılar. Bu gün də bir sıra dövlətlər məzhəb ixtilaflarının əsas himayədarlarıdırlar və müsəlmanları bir-birinin canına salmaq üçün milyonlarla pul xərcləyirlər. Bir halda ki, Afrikada minlərlə müsəlman qardaşlarımız ərzaq qıtlığından can verirlər.

Məqalənin sonunda M. Rəsulzadə qurbanlıq qoyunların dərilərini müharibədə zərər görmüşlərin ailələrinə verilməsi ilə bağlı dövrün şeyxülislamının təklifini dəstəkləyir və onun dəvətnaməsinin qəzetdə dərc edildiyini xatırladır. Bizdə də belə təşəbbüslərin olması yaxşı olar.

"Bayram etdiyin əsnada vətən müdafiəçilərini də unutma!
M. Ə. "İqbal", N766, 17 oktyabr 1914".

**Dilman Şahmərdanlı**

# XUM ÇÖLÜNDƏKİ HADİSƏ

*Bəşəriyyət tarixi sonradan cəmiyyətin simasını dəyişə biləcək taleyüklü hadisələrlə zəngindir. Bu qəbildən olan hadisələr adətən tarixin dönüş nöqtəsi adlandırılır.*

*İslam tarixində də müxtəlif dövrlərdə müsəlmanların sonrakı həyatına, fəaliyyətinə təsir edəcək dönüş nöqtələri mövcuddur. Belə tarixi dönüş nöqtələrindən birini də Qədir-Xum hadisəsi təşkil edir. Bəli, həmin gün sevimli peyğəmbərimiz Həzrət Məhəmməd (s) İlahi göstərişlə müsəlmanların sonrakı talelərini müəyyən edəcək, bütün İslam dünyasında öz əks-sədasını tapacaq tarixi bir addım atdı. O, özündən sonra müsəlmanlara rəhbər, İslam dininin keşiyində dayanacaq ləyaqətli imam təyin etdi.*



Hadisə hicrətin 10-cu, miladi təqvimlə 632-ci ildə baş vermişdir. Həmin il Zilqədə ayının 25-də Həzrət Məhəmməd peyğəmbər Həcc ziyarətinə gedəcəyini buyurdu. Bu xəbər xalqı sevinc dolu həyəcana gətirdi; bu Həcc mövsümünü sevimli Peyğəmbərimiz ilə birlikdə keçirmək istəyən minlərlə müsəlman Kəbə evini ziyarət etməyə hazırlaşdı. Sevimli Peyğəmbərimiz Əbu Dəcanəni Mədinədə öz yerinə canişin təyin edib 60 qurbanlıq götürərək, digər müsəlmanlarla birlikdə Həcc mərasimini yerinə yetirmək üçün Məkkə şəhərinə yola düşdü. Həzrət Məhəmməd Peyğəmbər Zülhüleyfə adlı yerdə ehram bağlayıb Həcc mərasiminə başladı. Bu zaman Yəməndə məmuriyyətdə olan İslam peyğəmbərinin yaxın silahdaşı Həzrət Əli (ə) ixtiyarındakı dəstə ilə Məkkəyə doğru yollandı və Ərəfə günündən əvvəl bu ilin Həcc mərasimində Peyğəmbərlə bərabər Həcc ziyarətini etməyə müşərrəf oldu.

İlahi ayinləri yerinə yetirib Həcc ziyarətini başa vuran Peyğəmbər Mədinə şəhərinə yola düşdü. Bu ilin Həcc ziyarəti sevimli Peyğəmbərimizin son Həcc səfəri idi. Bu mərasim sonralar tarixə "Vida Həcci" kimi düşdü.

Maraqlıdır, bəs görəsən bu Həcc ziyarətinin tarixi əhəmiyyəti nədən ibarət idi?! Zilhiccə ayının 18-i bazar günü Cövhə məntəqəsinin yaxınlığında yerləşən Xum adlı yerə yetişdikdə mələk Cəbrayıl Allahın buyruğu ilə Peyğəmbərə Maidə surəsinin 67-ci ayəsini nazil etdi:

"Ya Peyğəmbər! Rəbbin tərəfindən sənə nazil olanı təbliğ et! Əgər bunu etməsən, Allahın risalətini yerinə yetirmiş olmazsan. Allah səni insanlardan qoruyacaq. Həqiqətən, Allah kafir camaatı düz yola yönəltməz".

Ayə nazil olduqdan sonra Həzrət Peyğəmbər karvanın saxlanılması göstərişini verdi. Təxmini sayı 100 mini keçən müsəlmanlar bir yerə toplaşdı. Hamı bir-birindən nə hadisə baş verdiyini soruşur, bu qızmar günəş altında dayandıqlarının səbəbini öyrənməyə tələsirdi. Peyğəmbərlə birgə camaat namazı qılındı. Namazdan sonra Peyğəmbər dəvələrin yəhərlərindən minbər quraraq bu xütbəni oxumağa başladı:

"Həmd və səna Allaha məxsusdur. Ondan kömək istəyir, Ona iman bəsləyir, Ona təvəkkül edir və layiqsiz əməllərdən pənah aparırıq. Allahdan başqa hidayət edib düz yol göstərən yoxdur. Allah hidayət edən şəxsi heç kəs yolundan azdıra bilməz. Şəhadət verirəm ki, Ondan başqa məbud yoxdur və Məhəmməd Onun rəsulu və elçisidir.

Camaat! Agah olun! Haqqın dəvətini qəbul edib, tezliklə sizlərdən ayrılmağımın vaxtı yaxınlaşmışdır. Mən və sizlər məsuliyyət daşıyırıq...

Allahdan başqa heç bir məbudun olmamasına və Məhəmmədin Onun bəndəsi və elçisi olduğuna şəhadət verirsinizmi? Habelə, Cənnət və Cəhənnəmin, ölümün haqq olduğuna, Qiyamət gününə heç bir şübhə olmamasına və Allah-Təalanın ölüləri diriltməsinə şəhadət verirsinizmi?"

Səhabələr bir ağızdan dilləndilər: "Bəli, şəhadət veririk!"

Həzrət Peyğəmbər buyurdu: "İlahi, Sən Özün şahid ol! Həqiqətən, mən axirət aləminə köçməkdə və hovuzun kənarına çatmaqda sizləri qabaqlayıram. Hovuzun kənarında yanıma gələcəksiniz. Mən sizlər üçün qiymətli olan iki ağır əmanət qoyub gedirəm. Fikirləşin və diqqətli olun. Məndən sonra bu əmanətlə necə rəftar edəcəksiniz?"

Bir nəfər soruşdu: "Ya Rəsulallah! Onlar hansılardır?" Həzrət Peyğəmbər buyurdu: "Biri Allahın kitabı olan Quran, ikincisi isə itrətim olan pak Əhli-beytimdir. Mehriban Allah məni xəbərdar edib ki, bu iki əmanət Kövsər hovuzunun kənarında mənə qovuşmayınca, bir-birindən ayrılmayacaqlar. Mən bunu Allahımdan istəmişəm. Quran və itrətimdən qabağa keçsəniz, yaxud geri qalsanız həlak olarsınız".

Bu sözlərdən sonra Peyğəmbər Həzrət Əlinin əlindən tutub yuxarı qaldırdı və buyurdu: "Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır. Ey Allahım! Hər kim onunla dost olsa, Sən də onunla dost ol. Hər kim onunla düşmən olsa, Sən də onunla düşmən ol!"

Məsələnin bu məqamında bir nüansa




toxunmaq istərdik. Bəziləri deyir ki, bu xütbədə Peyğəmbərimizin istifadə etdiyi "mövla" kəlməsinin lüğəvi mənalarından biri də sevən, dost mənası olduğundan, Peyğəmbərin bu sözləri söyləməkdə məqsədi "Kim məni sevirsə, Əlini də sevsin" fikrini çatdırmaq olmuşdur. Lakin gəlin məsələni daha dərindən araşdıraq. Əvvəl də qeyd etdiyimiz kimi, həmin gün hava çox isti idi. Zəvvarlar yorğun vəziyyətdə öz evlərinə tələsirdilər. İnsanlara qarşı xüsusi mərhəməti ilə seçilən Peyğəmbərimiz necə ola bilərdi ki, müsəlmanları günorta çağı, isti havada "Kim məni sevirsə, Əlini də sevsin" demək üçün toplasın? Digər tərəfdən, Peyğəmbərimiz bu xütbədə "Mən möminlərə onların özlərindən daha haqlı deyiləmmi?" cümləsini "mövla" kəlməsi ilə birlikdə istifadə etmişdir. Bu isə onu göstərir ki, "mövla" kəlməsi məhz "vilayət" - rəhbərlik mənasını verir.

Sonra sevimli Peyğəmbərimiz əlavə edərək buyurdu: "Bu xəbəri burada olanlar olmayanlara çatdırsın". İndi, belə bir cəhətə də diqqət yetirək. Məgər müsəlmanlar Əlini özünə düşmən sanırdılarmı ki, Peyğəmbər təkidlə bu məsələni vurğulayır və hələ üstəlik bu xəbəri burada olmayanlara da çatdırılmasını buyurur? Halbuki, Həzrət Əlinin fəzilətləri onun müasirləri olan müsəlmanlara daha çox bəlli idi.

Sevimli Peyğəmbərimizin bu sözlərindən sonra mələk Cəbrail enərək Allah tərəfindən Maidə surəsinin 3-cü ayəsini nazil etdi:

"Bu gün dininizi kamil etdim, sizə olan nemətimi tamamladım və sizin üçün din olaraq İslamı bəyənib seçdim".

Ayə nazil olduqdan sonra Həzrət Peyğəmbər buyurdu: "Allahu Əkbər! Din kamilləşdi, nemətlər tamamlandı, Allah-Təalanın risalətimə və məndən sonra Əlinin vəsi olmasına sevindiyinə görə Ona şükr edirəm!"

Bu hadisədən sonra müsəlmanlar bir-bir Əli bin Əbu Talibi möminlərin mövlası olması münasibətilə təbrik etdilər. Hamıdan öncə Əbu Bəkr və Ömər bin Xəttab Əlinin yanına gəlib dedilər: "Ey Əbu Talibin oğlu Əli, səni təbrik edirik. Sən bu gündən bizim və bütün mömin kişi və qadınların mövlası və rəhbərisən".

Xum çölündə baş verən bu hadisə sonralar tarixə "Qədir-Xum" adı ilə düşdü. Peyğəmbərimizin Vida Həccində buyurduğu kəlamlara sədaqət nümayiş etdirən müsəlmanlar artıq 14 əsrdir ki, bu günü xüsusi önəmlə qeyd edirlər.

**Dr. Elşən Mustafaoğlu**

# Qeybətlə böhtanın fərqi nədir? Böhtanın hansı ağır nəticələri var?

Böhtan – yalan sözə deyilir ki, başqa bir insana nisbət verilər. Böhtana İslamda töhmət də deyirlər ki, dilimizdə olan töhmət sözü ilə müxtəlif məna kəsb edir. Böhtan – kəbirə günahlardandır. Böhtan odur ki, bir insana onda olmayan bir eybi və ya başqa bir şeyi nisbət verəsən. Böhtanın günahı qeybətdən də çoxdur. Çünki insan qeybət edən zaman adətən qarşı tərəfin mövcud olan eyblərini bəyan edər. Ancaq insan böhtan atan zaman qarşı tərəfdə olmayan eybləri ona nisbət verər.

Böhtan iki kəbirə günaha şamil olar: qeybətə və yalana. Əbdürrəhman ibni Səbabə nəql edir ki. İmam Sadiqdən (ə) eşitmişəm ki, buyurub: "Böhtan odur ki, bir insan haqqında o şeyi deyəsən ki, onda yoxdur".

İmam Kazım (ə) buyurur: "Hər kim başqa birinin arxasınca elə şey deyər ki, onda mövcuddur və insanlar da bilər ki, həmin şey onda var – onun qeybətini etməz. Hər kim başqasının arxasınca elə şey deyər ki, onda var, ancaq insanlar bunu bilmirlər – qeybətini etmiş olar. Hər kim başqasının arxasınca elə şey deyər ki, onda yoxdur – ona böhtan atmış olar".

Beləliklə, töhmət və ya böhtan o günahdır ki, başqasına onda olmayan eybi nisbət verəsən. Bu günahın nə qədər çirkin olmasına hədislərdə nəzər salaq.

Həzrət Peyğəmbər (s) buyurur: "Hər kim mömin qadın və ya kişiyə töhmət vurar və ya onda olmayan şeyi deyər – Allah onu Qiyamət günü atəş olan yerdə saxlayar".

İmam Sadiq (ə) buyurur: "Hər kim mömin qardaşına töhmət vurar, iman ürəyindən zay olar və aradan gedər. Necə ki, duz suda həll olar".

Əxlaq alimləri böhtanı üç yerə bölürlər:

1. Allaha nisbət verilən böhtan.

2. Peyğəmbərə (s) və ya İmamlara (ə) nisbət verilən böhtan.



3. İnsanlara nisbət verilən böhtan ki, bunun da iki növü vardır:

a) Bəzən elmsiz deyilən sözdür. Yəni, sabit olmayan eybi ona nisbət vermək.

b) İftiradır, insan bilə-bilə ki, qarşı tərəfdə həmin eyb yoxdur, onu düşmənçilik üzündən həmin şəxsə nisbət verər.

Biz əgər böhtan və töhmətin nə qədər çirkin əməl olduğunu bilsək və özü ilə gətirdiyi pis nəticələrdən xəbərdar olsaq, o zaman ondan əl çəkə bilərik.

(İslami saytlara istinadən)

# HƏZRƏT ƏLİNİN (Ə) FATİMƏYƏ (Ə) SEVGİSİ

***Həzrət Əlinin (ə) həzrət Fatiməyə (ə) sevgi və məhəbbəti olduğu bir halda necə olur ki, "Nəhc əl-bəlağə"də dünyaya meyli olmadığından söhbət açır?***




Birincisi, təbii və fitri hiss olan sevgi qınanılan dostluqla (sevgi ilə) güclü və zəiflik baxımından fərqlidir.

Dünyaya meyl təbii həyat ehtiyaclarını təmin etmək səviyyəsində olsa, nəinki qınağa məruz qalmır, əksinə yaxşı hal kimi qiymətləndirilir. Lakin ifrata gətirib çıxararsa və məftunluq nümunəsinə çevrilərsə, heç də yaxşı hal kimi dəyərləndirilməyəcək.

İkincisi, Allaha bəndəliyə vəsilə olacaq sevgi əslində dünya sevgisi yox, axirət sevgisidir ("Bihar əl-ənvar", c. 70, səh. 62).

Həzrət Əlinin (ə) kəlamlarının məcmusundan belə nəticəyə gəlmək olar ki, qınaq obyekti və dəyərsiz olan dünya insanı axirətdən yayındıran dünyadır. İnsanı axirətə qovuşduran dünya isə bəyənilən və yaxşıdır. Xoşagəlməz və bəyənilməyən dünya son qayə olan, insanı özünə məşğul edən, axirətdən üz döndərən dünyadır. Bəyənilməyən dünya o dünyadır ki, insanı özünə əsir edir. Allahı, dünyanı, axirəti, dini, hətta özünü onun üçün dünyaya satacaq qədər kiçildir (Bax: "Nəhc əl-bəlağə", qısa kəlamlar: 56; məktub: 49; xütbə: 160; "Qürər əl-hikəm", c. 2, səh. 331, hədis: 2764-2763).

Belə olan halda İmam Əlinin (ə) həzrət Zəhraya (ə) olan sevgisi hansı qisimə daxildir? Bəyənilməyən dünya sevgisinə, yoxsa bəyənilən dünya sevgisinə?

Məsumların (ə) sevgisinin kökündə yalnız Allaha sevgi durur. Onlar əminliklə və öz sonsuz, dərin dərkləri ilə bu həqiqəti bilirlər ki, Allah, kainatda və varlıq aləmində yeganə həqiqi və gerçək məhbubdur. Buna görə də məsumlar öz münacatlarında Allah sevgisi istəyir və ondan uzaq düşməkdən gileylənirlər ("Münacati-muhibbin"; "ərəfə" duası; "Kumeyl" duası).

Allah sevgisi bütün sevgilərin əsasını təşkil etdiyi üçün mötəbər şiə kitablarında "Hübb fi Allah" və "Buğz fi Allah" başlıqlı fəsillərə yer verilmiş və orada ən orijinal dini təlimləri ehtiva edən, insanı doğru sevgilərə ən yaxşı şəkildə yönəldən rəvayətlərə yer almışdır (Bax: "Əl-Kafi fi əl-üsul", c. 3).

İmam Əlinin (ə) həzrət Zəhraya (ə) sevgisi də bu yöndə idi. Yəni, həzrət (ə) Allah sevgisinə qərq olduğundan Allahı sevən hər şeyi və hər kəsi, eləcə də Allahın sevdiyi hər şeyi və hər kəsi sevirdi. Bu sevgi həzrət Fatimə (ə) kimi fərdlərə münasibətdə ən yüksək səviyyədə idi. Çünki könül gözü ilə o həzrətin (ə) ilahi eşqin hansı pilləsində durduğunu və həzrət Haqqın da onu nə qədər çox sevdiyini görürdü.

Deməli, İmam Əlinin (ə) öz həyat yoldaşına sonsuz sevgisi – dünyəvi və məcazi eşqin müsbət hal olduğu – ər-arvadlıq münasibətindən əlavə daha çox həzrət Fatimənin (ə) axirət sevgisi, Allah sevgisi ilə bağlı idi.

Çevirən: **Maqsud Sayıl**



# ÜÇ NÖV İSLAM

***Bilinməsi önəmli olan bir mövzu barədə yazmaq istəyirəm. Elə bir mövzu ki, yalnış anlaşıldığı təqdirdə acı fəsadlarla sonuclana bilir. Bu gün İslamla bağlı bir çox problemlərin kökü məhz bu məsələyə gedib çıxır. İslama qarşı kiminsə bədbin olması, kiminsə bu dindən yayınması, kiminsə İslamı terrorda ittiham etməsi, kiminsə onu düzgün qavramaması və s. bu kimi problemları, zənnimcə, üç fərqli İslamı bir-birindən ayıra bilməməkdən irəli gəlir. Çıxış yolu təkcə üç fərqli İslamı bir-birindən ayırmaqdadır. Üç fərqli İslam nə deməkdir? Məgər İslam üç növdür? Bu necə mümkün ola bilər axı? Allah bir İslam göndəribsə, onda üç İslam anlayışı nə deməkdir? Bu çoxluq haradan qaynaqlanır?***





### 1. Həqiqət, düşüncə və davranış anlayışları

Yuxarıda qeyd olunan sualları cavablandırmaq üçün üç anlayışı bir-birindən ayırmalıyıq: həqiqət, düşüncə və davranış. "Həqiqət" həmişə insan idrakının fövqündə dayanır, yəni onun varlığı bizim varlığımızdan, dərkimizdən asılı deyil. Bu isə o deməkdir ki, biz var olsaq da, olmasaq da, yəni dərk etsək də, etməsək də, həqiqət həmişə olub, var və olacaq. Biz sadəcə o həqiqəti anlaya, dərk edə və qavraya bilərik. Həqiqəti qavramaq "düşüncə" şəklində həyata keçir. Bizim düşüncələrimiz əslində həqiqət barədəki təsəvvürlərimizdir. Məsələn, mən hansısa bir nəsnə və ya olay barədə düşüncəyə sahibəmsə, bu, o deməkdir ki, mən həmin həqiqət barədə müəyyən bir təsvirə, dərkə malikəm. Bir sözlə, ondan məlumatlıyam. İnsan bir həqiqəti bildikdən, onun barəsində hansısa bir düşüncəyə sahib olduqdan sonra, həmin həqiqətin mahiyyətinə uyğun olaraq davranış sərgiləyə bilir. Məsələn, fərz edək, susuzuq və qarşımızda bir maye var. Hansısa bir yolla bilirik ki, bu maye sudur. Bu zaman nə kimi davranış sərgiləyəcəyik? Aydındır ki, susuzluğumuzu yatırmaq üçün onu içəcəyik. Deməli, içmək su adlı həqiqətin qarşısında sərgilədiyimiz bir davranışdır.

Qeyd etmək lazımdır ki, insan bəzən həqiqəti doğru şəkildə qavramaya bilər və nəticədə yanlış bir düşüncəyə sahib olub, səhv davranış sərgiləyə bilər. Bu, tamamilə normaldır. Demək, insan həmişə həqiqəti olduğu kimi anlamır. O bəzən anlama prosesində səhvə də yol verə bilər ki, bu da həmin həqiqət qarşısında yanlış davranışa gətirib çıxaracaqdır. Çünki davranış insanın düşüncəsindən asılıdır, düşüncə yanlışdırsa, davranış da yanlış olacaq.

### 2. İslam həqiqət, düşüncə və davranış kimi

Yuxarıda qeyd olunanlara əsasən, İslamı da həqiqət, düşüncə və davranış şəklində nəzərdə tutmaq olar. Yəni İslamı bir həqiqət, bir düşüncə və davranış kimi nəzərdən keçirə bilərik. Biz burada şərti olaraq bu üç mərhələni "İslam bir" (İslam-həqiqət), "İslam iki" (İslam-düşüncə) və "İslam üç" (İslam-davranış) adlandırırıq. Əlbəttə, bu üçlü bölgü təkcə İslam dini ilə bağlı deyil, onu hər bir dinə, məsələn, xristianlıq və yə yəhudilik kimi səmavi dinlərə də tətbiq edib, "Xristianlıq bir", "Xristianlıq iki" və "Xristianlıq üç"dən söz açmaq olar. İndi isə gəlin, bu üç fərqli İslamı izah edək.

### 2.1. İslam bir

"İslam bir" dedikdə, İslam dini bir həqiqət kimi nəzərdə tutulur, elə bir həqiqət ki, varlığı bizim dərkimizdən asılı deyil. Bu həqiqət özünü biz insanlar üçün "müqəddəs mətnlər" şəklində təzahür etdirir. Başqa sözlə, İslam dini müqəddəs mətnlər şəklində bəşəriyyətə təqdim olunan həqiqətlər toplusudur. Müqəddəs mətnləri formalaşdıran isə təkcə Allahın iradəsidir. Yəni Allah öz əzəli elmi, qüdrəti əsasında bu müqəddəs mətnləri insanlar üçün təyin edib göndərmişdir. Bəs, onda bu müqəddəs mətnlər nədən ibarətdir? Müqəddəs mətnlər Quran ayətləri və peyğəmbərin (ə) sünnəsini əks etdirən mötəbər hədislərdir. Deməli, "İslam bir" dedikdə, müsəlmanların müqəddəs mətnlər məcmusu, yəni Quran və mötəbər hədislər nəzərdə tutulur. Elə buradan aydın olur ki, din bir həqiqət kim iki ünsürü özündə ehtiva edir: müqəddəslik (sanctity) və avtoritetlik (authority). Bu da o deməkdir ki, dini mətnlər (Quran və mötəbər hədislər) həm müqəddəs, həm də nüfuzludur. Bu əsasla, insanlar onlara həm sayğı göstərməli, həm də tabe olmalıdır.

### 2.2. İslam iki

"İslam iki" müsəlman alimlərinin 14 əsr boyunca dini mətnlər barədə təqdim etdiyi təfsirlər, izahlar, şərhlər (oxunuşlar, qiraətlər), dərklər və yozumların məcmusu deməkdir. Yəni biz "İslam bir" barəsində olan bu təfsirlərin, şərhlərin, oxunuşların, yozumların toplusunu "İslam iki" adlandırırıq. Burada İslamı bir həqiqət kimi deyil, bir düşüncə kimi realizə edirik. Bu isə o deməkdir ki, "İslam bir"i, yəni müqəddəs mətnləri qavramaq "düşüncə" şəklində həyata keçir. Bizim düşüncələrimiz isə, əslində, "İslam bir" barədəki təfsirlərimiz, şərhlərimiz, oxunuşlarımız və yozumlarımız deməkdir. Müsəlman alimlərinin (teoloqlar, əxlaq alimləri, fəqihlər, filosoflar və ariflər)

tarix boyu İslamla bağlı qələmə aldıqları kitablar, əsərlər məhz onların "İslam bir" barədəki dərklərini əks etdirir. Buradan bizə aydın olur ki, "din" ilə "dini bilik" arasında fərq qoyulmalıdır. Deyildiyi kimi, din- müqəddəs mətnlər (Quran və mötəbər hədislər) şəklində bəşəriyyətə təqdim olunan həqiqətlər toplusudur, ancaq dini bilik- insanların o mətnlərdən dərk etdikləri, qavradıqları, anladıqlarıdır. Dini bilik zərurən həmişə dini əks etdirmir, bəzən əks etdirə, bəzənsə əks etdirməyə bilər. Odur ki, dinlə dini biliyi bir-birindən ayırmalıyıq. Bunu etmədikdə, "dini bilik" adına, yəni "İslam iki" adına bizə təqdim olunan hər bir şeyi dinə, yəni "İslam bir"ə aid edəcəyik. Bu isə yalnışdır! Ona görə ki, yuxarıda dediyimiz kimi, həqiqət həmişə insan idrakının fövqündə dayanır, yəni onun varlığı bizim dərkimizdən asılı deyil. Biz sadəcə olaraq, o həqiqəti anlaya, dərk edə və qavraya bilərik. Ancaq bəzən həqiqəti doğru şəkildə, yəni olduğu kimi qavramamağımız mümkündür. Deməli, insan həmişə həqiqəti olduğu kimi anlamır, bəzən anlama prosesində səhvə yol verir.

Bir çox müsəlman alimlər, o cümlədən, böyük İslam mütəfəkkiri Cavadi Amuli "Dini bilik şəbəkəsində ağılın statusu" adlı əsərində "din"i "dini bilik"dən ayırmağın vacibliyini qeyd etmişdir. Bu məqamda əsaslı bir sual yaranır: Dini biliyin dini düzgün əks etdirməsini haradan bilmək olar? Necə təyin etmək olar ki, dini bilik eynilə dində olan həqiqəti bizə aşılayır? Qısa və konkret olaraq sualı cavablandırmaq istəsək, deyə bilərik ki, bunu təyin etmək üçün yeganə yol "əsaslandırma" (justification) əməliyyatıdır. Yəni məzmun və forma baxımından qüsursuz olan sübut əsasında isbatlamalıyıq ki, dini bilik din ilə üst-üstə düşür və ona adekvatdır.

### 2.3. İslam üç

"İslam üç"ə gəlincə, bu, İslam yaranandan indiyədək, müsəlmanların tarix boyu sərgilədikləri davranışların və bu davranışlardan qaynaqlanan nəticələrin məcmusudur. Başqa sözlə, İslamın tarixi kontekstində müsəlmanlar tərəfindən tətbiq edilməsi deməkdir. Deməli, burada "İslam bir" həqiqət və ya düşüncə kimi deyil, əksinə, bir davranış kimi nəzərdə tutulur. Yəni "İslam üç" tarix boyu və bu gün müsəlmanların dünyada gündəlik praktik əməllərində sərgilədikləri davranışlar və bu davranışların dünyaya göstərilməsidir.

### 3. Üç növ İslamda bağlılıq, islahat və yanlışlıq əmsalı

Yuxarıda deyilənlərə əsasən, hər üç İslamın həm bir-biri ilə kəsişmə nöqtələri, həm də ayrılma nöqtələri ola bilər. Bu o deməkdir ki, bəzi hallarda, "İslam bir", "İslam iki" və "İslam üç" hər üçü eyni ola bilər. Yəni "İslam iki" "İslam üç"ü olduğu kimi əks etdirə və "İslam üç" də "İslam iki" sayəsində doğru bir davranış qaynağına çevrilə bilir. Sadə desək, bəzi hallarda müsəlmanlar dinin təlimlərini doğru şəkildə dərk edir və nəticədə onları doğru şəkildə həyata keçirirlər. Bu zaman üç İslam bir-birini tamamlayır. Bəzi hallarda isə belə olmur, yəni "İslam iki" "İslam bir"i olduğu kimi əks etdirir, ancaq müsəlmanlar arasında tətbiq olunan İslam isə müəyyən səbəblərdən dolayı onlarla uyğun gəlmir. Burada üçüncü hal da təsəvvür etmək olar, yəni bəzi hallarda nə "İslam iki", nə də "İslam üç" "İslam bir"i əks etdirir. Bu zaman müsəlmanlar arasında tətbiq olunan, icra edilən İslam bir davranış kimi yanlış düşüncənin məhsulu olduğuna görə səhv nəticələrə yol açır, çünki "İslam iki" "İslam bir"i əks etdirmədiyinə, onunla üst-üstə düşmədiyinə görə müsəlmanlara yanlış bilgi, düşüncə aşılayır və nəticədə dünyada, cəmiyyətdə yanlış davranışların şahidi oluruq. Xürafat, mövhumat və cəfəngiyat da elə buradan üzə çıxır. Yəni "İslam iki" və "İslam üç" "İslam bir"i əks etdirməyəndə və ya "İslam üç" "İslam bir"i əks etdirən "İslam iki" ilə üst-üstə düşməyəndə, qeyd olunan hadisələr cəmiyyətdə təzahür edir.

Deməli, prinsip olaraq, müsəlman dindar olma nöqteyi-nəzərindən "İslam bir"ə bağlı olmalı və onu müdafiə etməlidir. Buna da unutmamalıyıq ki, "İslam bir"i əks etdirən "İslam iki" də "İslam bir" hökmündə olub, eyni statusu daşıyır. Bundan əlavə, aydın olur ki, dini sahədəki islahatlar, reformalar "İslam iki" və "İslam üç"də aparılmalıdır. "İslam bir" isə Allahın əzəli elmi, iradəsi və qüdrətinin məhsulu olduğundan bəşəri islahatların fövqündə dayanır. Çünki o, tamamilə qüsursuz və kamildir. Digər bir maraqlı məqam isə ondan ibarətdir ki, "İslam üç"də olan yanlışlıq əmsalı "İslam iki"dəki yanlışlıq əmsalından daha böyük olur. Bu isə o deməkdir ki, "İslam üç" heç də həmişə gerçək İslamı təmsil etmir və belə bir İslamdan heç bir zaman "İslam bir"in




də məhz belə olması qənaətinə gəlmək olmaz.

### 4. Nəticə

***Deyilənlərdən aşağıdakı nəticələri əldə etmək olar:***

*1. İslam da, varlıq aləmində olan bəzi reallıqlar kimi, mahiyyət etibarilə üç növ realizə oluna bilər: həqiqət, düşüncə və davranış kimi. Məhz buradan "İslam bir", "İslam iki" və "İslam üç" anlayışlarını əldə edirik.*

*2. İslam dinini araşdıran, kənardan onu izləyən birisi daim üç fərqli İslamı bir-birindən ayırmalıdır. Necə ki hansısa bir uyğun reallıq – nəsnə və ya olayın mahiyyət etibarilə həqiqət, düşüncə və davranış kimi realizəsində belə edilir.*

*3. İslahat və reformalar yalnız "İslam iki" və "İslam üç"də aparılmalıdır. Çünki həqiqət islahatdan sığortalanmışdır, ancaq düşüncə və davranışda isə belə bir sığorta mövcud deyil.*

*4. Bu gün dünyada səsləndirilən "ənənəvi İslam", "fundamentalist İslam" və "modern İslam" adları, əslində, insanların "İslam iki" barədə olan anlayışları və təsəvvürləridir.*

*5. "İslam iki" və ya "İslam üç"ü tənqid etməklə, onu yanlış hesab etməklə heç bir zaman "İslam bir"i tənqid etmək, onun yanlışlığı qənaətinə gəlmək doğru olmazdı. Məntiqi baxımdan bu yanlış metoddur, çünki düşüncəyə və davranışa irad bildirmək məntiqi baxımdan heç də həqiqətə irad bildirmək deyil. Odur ki, İslamı araşdıranlar diqqətlə üç fərqli İslamı bir-birindən ayırmalıdırlar.*

*6. Bu gün dünyamızda bəşəriyyət qarşısında İslam adına rəhmsizlik, din adına ən iyrənc zorakılıq növlərini nümayiş etdirən, Allah adına bütün insanlıq meyarlarını pozan radikal ekstremist cərəyanlar, o cümlədən, İŞİD heç bir şəkildə "İslam bir"i təmsil etmir. Hətta şiə və sünni müsəlman alimlərinin tarix boyu təqdim etdiyi "İslam iki" ilə belə yaxından və uzaqdan heç bir əlaqəsi yoxdur.*

**Emin İmanlı**

# İKİ CÜR ŞƏRİƏT: VƏHY ŞƏRİƏTİ VƏ AĞIL ŞƏRİƏTİ



**1. Şəriət nədir?**

***Bu termini necə anlayaq? Qısa və konkret şəkildə ifadə etsək, deyə bilərik ki, şəriət- bilik və dəyərlər sistemi deməkdir. Həm bilik təqdim edir bizə, həm də dəyərlər. Bəs, bilik nədir? Bilik-olanlar və olmayanlardır. Yəni varlıq aləmində mövcud olan və olmayan faktlar deməkdir. Məsələn, Allah var, Axirət var, Mələk var, Allahın şəriki yoxdur, Allah zalım deyil və s. Dəyərə gəlincə, bu, olmalı olanlar və olmalı olmayanlardır. Yəni hüquqi və əxlaqi sistem deməkdir. Məsələn, İnsan ədalətli olmalıdır, Yalan danışmaq haramdır, Kimsəyə zülm etmək yasaqdır, Başqasını qətlə yetirmək haramdır və s. Deməli, şəriət özündə həm "olan"ları və "olmayan"ları, həm də "olmalı olan"ları və "olmalı olmayan"ları ehtiva edən bir sistem deməkdir. Şəritəi bu mənada anlasaq, izah etsək, iki cür şəriətin olduğunu görərik: Vəhy şəritəi və ağıl şəriəti.***

2. Vəhy şəriəti Allahın xaricdən insana təqdim etdiyi, yolladığı bir şəriətdir. Allah tarix boyu öz elçiləri vasitəsilə belə bir şəriəti bəşəriyyətə göndərmişdir. Allah vəhy şəriətində iki cür mesaj var,belə ki, bəzi mesajlar nəzəri bilgiləri aşılayır, bəzi mesajlar isə əməli mesajları. Həm olanları və olmayanları qeyd edir, həm də olmalı olanları və olmalı olmayanları. Bunlar, əslində, Allah tərəfindən hansısa bir xarici peyğəmbərin vasitəsilə göndərilən müddəalar və təlimlər toplusudur. Belə ki, bu toplu insanın özü ilə, Allahla, təbiətlə və bənzəri olan insanla əlaqələrini tənzimləyir. Məqsəd isə şəriətə əməl edən insanın xoşbəxtliyə və kamala çatmasından ibarətdir. Beləliklə, aydın olur ki, vəyh şəriətində iki cür müddəa var: nəzəri müddəalar (olanlar və olmayanlar) və əməli müddəalar (olmalı olanlar və olmalı olmayanlar).

3. İndi isə gəlin, ağıl şəriətinin nə olduğunu bilək. Allah insana xaricdən şəriət göndərdiyi kimi, daxildən də ona şəriət göndərmişdir. Bu, onun ağlının ona təqdim etdiyi bilgilər toplusudur. Ağıl da vəyh kimi bilik qaynağı hesab olunur. Həm nəzəri bilgilər təqdim edir insana, həm də əməli bilgilər. Məsələn, "Allah vardır" bilgisini nəzərə bir bilgi olaraq ona təqdim edən ağıldır və ya "Yalan pisdir", "Doğru danışmaq yaxşıdır", "Xəyanət pisdir", "Ədalət yaxşıdır", "Zülm pisdir" və s. Ağıl qeyd olunan bu əməli bilgiləri dərk edir və anlayır ki, yaxşını etmək, pisi isə kənara qoymaq gərəkdir. Bu əsasla deyə bilərik ki, ağıl şəriətində də vəhy şəriətində olduğu kimi, iki cür müddəa var, həm nəzəri müddəalar, həm də əməli müddəalar.

4. Nəticələr:

4.1. Vəhy və ağılın yaradanı vahid olduğundan, yəni Allah olduğundan, heç bir zaman mümkün deyil ki, bu iki şəriətdə bir-birinə zidd olan bilgilər olsun. Obrazlı ifadə etsək, həm vəhyin, həm ağılın proqramı eyni proqramist tərəfindən yazılıb. Əslində, bu iki şəriət bir-birini tamamlayır. Bu iki şəritədə bir-birini təsdiqləyən çoxsaylı bilgilər, məlumatlar mövcuddur. Həm ağıl şəriəti vəhy şəritəini təsdiqləyir, həm də əksinə. Deməli, vəhy şəriətində ağılın inkar etdiyi bilgilər yoxdur və ya əksinə.

4.2. Yuxarıda deyilənlərdən əldə olunan digər bir nəticə isə ondan ibarətdir ki, insan şəriətdəkilərə əməl etməyəndə suç, günah işləmiş olur. Deməli, həm vəhy şəritətinə, həm də ağıl şəriətinə əməl etməyən "suçlu/ günahkar" hesab olunur. Buradan aydın olur ki, iki cür günah var: dini günah və əqli günah. İnsana xarici şəriətə (vəhy şəriəti) əməl etməyəndə "dini günah", daxili şəriətə (ağıl şəriəti) əməl etmədikdə isə "əqli günah" işləmiş olur. Deməк, insan hər iki şəriət qarşısında məsuliyyət daşıyır. Hədislərdə də qeyd olunduğu kimi, Allahın insanlar üzərində iki cür hüccəti var: zahiri hüccətlər və batini hüccətlər. Məlum hədislərdə "zahiri hüccət" peyğəmbər kimi, "batini hüccət" isə ağıl kimi təqdim olunur. Bu əsasla, adam zahiri hüccətin sözünə baxmayanda suç işlədiyi kimi, batini hüccətin sözünə qulaq asmayanda da suç işləmiş olur.

4.3. Başqa maraqlı bir nəticə isə belədir: Biz vəhy şəriətini həmişə ağıl şəriəti işığında oxumalıyıq. Bu, o deməkdir ki, mən vəhy şəriətindəki hansısa bir bilgini anlayarkən, təfsir edərkən, yozarkən, izah edərkən ağıla zidd bir dərk, təfsir, yozum və izah irəli sürə bilmərəm. Vəhy şəriətindən belə bir çıxarış heç bir şəkildə məqbul ola bilməz. Çünki iki şəriət arasında heç bir ziddiyyət yoxdur. Mən daim vəhy barədəki dərkimi ağılımla tənzimləməli və onun işığında vəhyə oxumalıyam. Başqa sözlə, hər iki şəriəti balanslaşdırmalı, tarazlaşdırmalıyam. Əks təqdirdə, yanlış bir təfsir irəli sürmüş olacağam. Nədən vəhy şəriətini ağıl şəriəti işığında oxumalıyıq? Bunun bir neçə səbəbi var, onlardan biri belədir ki, vəhy şəriəti "mətn(text)" şəklində özünü təzahür etdirir, ancaq ağıl isə belə deyil. Mətnin mahiyyəti isə bildiyimiz kimi, yozula bilən bir mahiyyətdir, yəni insan onu fərqli şəkillərdə yoza bilər, mətndə belə bir özəllik var, ancaq ağıl isə belə deyil, ağıl mətn şəklində olmadığına görə həmişə konkretliliyə, birmənalılığa, şəffaflığa malikdir. Deməli, mən mətni o zaman düzgün anlaya bilərəm ki, ağılın işığında onu oxumuş olum.

4.4. Dördüncü nəticə kimi bunu

qeyd edə bilərəm ki, məlum olduğu kimi, vəhy şəriətində, yəni həm Quranda, həm də sünnədə "müstəzəf (zəiflədilmiş)" anlayışı var. Bu, o deməkdir ki, insana haqq gəlib çatmırsa, müəyyən səbəblərdən dolayı ona nail ola bilmirsə, o insan haqq qarşısında məsuliyyət daşımır və üzürlü hesab olunur. Bu haqda çox danışmaq olar, ancaq mən iki örnək üzərində dayanmaq istəyirəm. Biri teist örnəyi, digəri isə ateist örnəyidir. Fərz edin, bir adam insanlardan, mədəniyyətdən, sivlizasiyadan uzaq bir atmosferdə dünyaya gəlir və eyni zamanda Allaha da inanır, ancaq heç bir şəriətin varlığından xəbərdər olmur, heç ağlına belə gəlmir ki, din adlı bir fenomen var. Belə bir adam, düzdür, müstəzəf olduğuna görə vəhy şəriəti qarşısında məsuliyyət daşımır və Allah sabah axirətdə onu bu xarici şəriətə (din) əməl etmədiyinə görə cəzalandırmayacaq, ancaq bu adam daxili şəriət hesab olunan ağıl şəriəti qarşısındakı məsuliyyətindən boyun qaçıra bilməz, çünki bu şəriət həmişə onunla birgədir, ondan ayrılmazdır. Allah sabah axirətdə o adamı ağıl şəriətinə əməl əsasında cəzalandıracaq və ya mükafatlandıracaqdır. Bu əsasla iddia etmək olar ki, müstəzəf deistlər (dini qəbul etməyənlər) belə bu qəbildəndir. İkinci örnək bir az mübahisəli olsa da, əgər dünyada doğurdan da səmimi və ciddi olaraq "müstəzəf ateist" tapılarsa, onu da yuxarıda deyilən qaydaya şamil etmək olar. Yəni o ateist heç bir zaman ağıl şəriətindən yayına bilməz. Sabah axirətdə Allah onu məhz bu şəriət əsasında hesaba çəkəcək. Əgər əqli günahlar etmişsə, buna görə o adam cəzalandırılacaq və əgər əqli savablar etmişsə, buna görə də mükafatlandırılacaqdır.

**Emin İmanlı**

# *YOXSULLUĞA SƏBƏB OLAN 9 AMİL*

***Yoxsul olmaq ümumilikdə eyb deyildir. O şey ki, bəyənilmir odur ki, insan öz ixtiyarı ilə yoxsulluğa düçar olar. Başqalarını əziyyətə salar. Bəs bu bəladan necə nicat tapmaq olar ki?***

***İnsan üç növ yoxsulluq ilə mübarizə aparar. Biri odur ki, bəzi dini göstərişləri tərk etdiyi üçün düçar olmuşdur. Digəri - o yoxsulluqdur ki, möminlərin günahının kəffarəsidir. Üçüncüsü - o yoxsulluqdur ki, möminin dərəcənin artması üçündür.***

*1. İnsanın ən çox yoxsulluğa düçar edən amil - günahdır. Allah vədə verir ki, əgər insanlar təqvalı olsalar, xeyir və bərəkət səmadan yağar. "Əgər şəhər və kəndlərin əhalisi iman gətirsəydilər və təqvalı olsaydılar, şübhəsiz göydən və yerdən onların üzünə bərəkətlər(in qapılarını) açardıq. Lakin onlar (Bizim ayələrimizi) təkzib etdilər. Belə olduqda onları əldə etdiklərinin cəzası olaraq yaxaladıq". ("Əraf" 96).*

*Allah Təala "Təlaq" surəsində buyurur ki, hər kim günahdan çəkinərsə, Allah ruzisini elə yerdən yetirər ki, heç onu güman etməmişdir. "Kim Allahdan qorxsa, (Allah) onun üçün (çətinliklərdən) çıxış yolu qoyar. Və ona güman etmədiyi bir yerdən ruzi verər. Kim Allaha təvəkkül etsə, O ona kifayət edər; şübhəsiz, Allah Öz əmrini çatdıran və iradəsini həyata keçirəndir".*

*("Təlaq" 2-4).*

*Günahın yoxsul olmağa təsiri o qədər böyükdür ki, İmam Əli (ə) buyurur ki, bu cür dua edin: "Pərvərdigara! Səndən ruzinin qət olmasına səbəb olan hər bir günahdan bağışlanma istəyirəm".*

*2. Halal olmayan rabitə. Hədislərdə oxuyuruq ki, zinanın yoxsul olmağa təsiri böyükdür. Həzrət Peyğəmbər (s) buyurur: "Zinanın beş ziyanı vardır: abırı aradan aparar, yoxsulluğa səbəb olar, ömrü qısaldar, Allahın qəzəbinə səbəb olar, insanı cavidan cəhənnəmə salar".*

*3. Yaxın qohumlarla əlaqəni kəsmək. Yoxsulluğa səbəb olan amillərdən biri də yaxın qohumlarla əlaqəni kəsməkdir. Əmirəl-möminin (ə) buyurur: "Qohumluq rabitəsini kəsmək – yoxsulluq gətirəndir".*

*4. İsraf. Yoxsulluğa səbəb olan amillərdən biri də israfdır. İmam Sadiq (ə) buyurur: "İsraf insanı yoxsul edər və iqtisadiyyatı düzgün tənzim etmək isə ehtiyacsızlığa səbəb olar".*



*5. Namazı yüngül hesab etmək. Namazı yüngül hesab etmək yoxsulluğa səbəb olar.*

*6. Yalana adət etmək. Əmirəl-möminin (ə) buyurur: "Yalana adət etmək yoxsulluq gətirəndir".*

*7. Yalandan and içmək.*

*8. Övladı lənətləmək. Həzrət Peyğəmbər (s) buyurur ki, yoxsulluğa səbəb olan amillərdən biri də övladı lənətləmək və onu nifrin etməkdir.*

*9. Haram musiqilərə qulaq asmaq. Məsumlar buyurur ki, ğinaya qulaq asmaq insana yoxsulluq gətirər.*

# İSLAM VƏ FEMİNİZM



Qadın hüquqları və onların öz hüquqlarının təmin olunması yönündə səyləri məsələsi qədim keçmişə malikdir. Lakin qadınların feminizm adlanan bərabərhüquqluluq tələbi hərəkatının ahəngdar, sistematik və xüsusi ad daşıyan mübarizəsinin tarixi yüz əlli ildən çox deyil (Rza Mütəməssik, "İslami feminizm, gerçəklər və problemlər", c. 1, səh. 452). Bunun kökünü araşdırsaq, deyə bilərik ki, feminizm hərəkatı renessansdan törəyən və humanizmdən məhrum olan yeni Qərb dünyagörüşünə əsaslanan bir prinsipdir. Çünki humanizm təfəkküründə maddi insan səy və təfəkkür üçün yeganə dəyərli mövzudur. Demək, feminist meyllər bu fərz üzərində qurulmuşdur ki, insan qanunvericiliyin mənşəyi və vəhydən ehtiyacsızdır. Başqa sözlə, heç bir feminist təfəkkürdə vəhyə tapınmaq, ictimai məsələlərdə dinin rəhbər tutulmasına etiqad bəsləmək anlayışı yoxdur (Məhəmməd Rza Zibayinejad, "İslamda qadın şəxsiyyəti sistemi", səh. 20-24). Hərçənd ki, feminizmin müxtəlif növləri var və onlar etiqadi, siyasi, iqtisadi məktəblərdən mənşə almışlar. Lakin son bir neçə onillikdə "islami feminizm" də bu sıraya əlavə olunmuşdur. Söhbət bundan gedir ki, feminist meyllər İslama və şəriətə etiqadla bir yerə sığır ya yox? Yəni, həm feminist, həm də müsəlman olmaq olarmı? Demək olar ki, İslam feminizmi müəyyən mənada postmodern nəzəriyyələrdən təsirlənmişdir. Çünki hər ikisi mədəni nisbiliyə əsaslanır. Belə ki, hər bir cəmiyyət öz problemlərinin cavabını öz mədəni atmosferi qəlibində verməlidir (Yenə orada, 118-119). Feministlər müxtəlif istiqamətlərinə rəğmən bərabərlik ideallarında müştərək olduqlarından İslamı və dini mətnləri ona uyğun izah etməyə məcburdular. Bu, İslam feministlərinin yazılarında da rast gəldiyimiz haldır. Professor Marqarit Bedran müsahibələrindən birində bu haqda deyir: "İslami feminizm Qurana yenidən baxış keçirmək və "qadınlar kişilərlə bərabər hüquqa malikdirlər, insanlar buna əməl etməlidir" deyən dini yazıları yenidən araşdırmaq üzərində qurulmuş məlumatlandırma ideyasıdır". Bir tərəfdən onların (dini mətnlərin) çoxu "bərabərlik" və "hüquqda bənzərlik" ifadələrini sinonim sözlər hesab edirlər. Digər tərəfdən isə Quranda bu ideya ilə ziddiyyət təşkil edən ifadələrə rast gəlirik. Misal üçün, qadın və kişi cinslərinə aid olan miras payı, kişilərin qadınların hamisi olması haqqındakı ayələrdən kişinin ailədə başçı və himayədar olmasını başa düşmək olar. Buna görə də sözügedən ayələrə yenidən baxış keçirmək, onların nazilolma zamanını, o dövrə hakim atmosferi nəzərə almaq, həmçinin ifadələrini öz ideyalarına uyğun şəkildə izah etmək kimi məsələləri ortaya atırlar. Lakin unudurlar ki, İslam dini bütün ilahi dinlərin təkmilləşdiricisi, qüvvədən salıcısı kimi göndərilmişdir. Onun hökmləri qiyamətə qədər icra olunmaq iqtidarındadır. Hər bir cəmiyyət üçün Məhəmmədin (s) halalı qiyamətədək halal, haramı isə qiyamətədək haramdır. Onlar Quranı anlamaqda yalnız öz ağıllarını ölçü hesab edirlər. Halbuki "Əgər (bunu) bilmirsinizsə, zikr (elm) əhlindən soruşun!" ayəsi bizə Quranın açıqlamasını bilənlərdən, elm adamlarından, mütəxəssislərdən soruşmağı tapşırır. Bu, "Mən sizin aranızda iki ağır yük qoyub gedirəm; Allahın kitabı və Əhli-beytim" məşhur və mütəvatir hədisində də işarə vurulan şeydir. Quran ayələri ilə bağlı tədqiqat aparan bütün müsəlman və hətta qeyri-müsəlman tədqiqatçılara bəllidir ki, Quranın gerçək təfsirçilərini ondan ayırmaq onu məhv etmək deməkdir. Çünki bu zaman Qurandan başa düşülənlər qeyri-məsum qavrayışlar olacaq. Çox ola bilsin ki, həqiqətə zidd olacaq. Buna görə də bu yöndə yeganə çıxış yolu məsum Əhli-beytdən (ə) kömək almaq, onların hədislərindən faydalanmaqdır. Bu nemətdən istifadə etmək üçün xüsusi metodlar var. Şübhəsiz, rəvayətləri anlamaq, onların yanlışını, doğrusunu ayırd etmək ədəbiyyat, üsul, rical, dirayə və s. biliklərə mükəmməl yiyələnməyi tələb edir və bu, hər adama müyəssər olmur. Bu səbəbdən də imamlar (ə) mütəxəssislərə, islamşünaslara müraciət olunaraq öyrənilən dini tövsiyə edirdilər. Əsl Quran təfsirçilərindən ayrı və dinamik ictihaddan uzaq düşməyin nəticəsi Quran patriarx cəmiyyətdə nazil olduğu üçün kişilərə daha çox müraciət edir qənaətidir. Bir halda ki, bildiyimiz kimi Ulu Yaradan qadın və kişinin hər birinin varlıq yönlərini, xislətlərini, xüsusiyyətlərini nəzərə alaraq onlara bir sıra hüquqlar vermişdir. Çox ola bilsin ki, öz ağılımızla onları dərk edə bilməyək. Çünki Quran məntiqində bənzərlik və bərabərlik anlayışları eyni deyil. Bəli, Quran kişi və qadına bərabər hüquq vermişdir. Amma bu heç də bənzər hüquq demək deyil. Çünki hüquqda bənzərlik bir çox hallarda zülmdür. Halbuki hikmət sahibi Allah ədalətin özüdür. Yaxşı bilirik ki, Allah-Taala insanın mənəvi məsələlərdə inkişafı və insani kamilliklə bağlı ayələrdə "Ey insanlar!", "Ey iman gətirənlər!" kimi ifadələrdən istifadə etmişdir. Misal üçün, "Nisa" surəsinin ilk və "Hucurat" surəsinin 13-cü ayəsi bu qəbildəndir. Lakin həmin Quran kişinin qadının hamisi, kişinin irs payının iki

qat olması kimi məsələləri də aydın ifadə edir. Bunu yozmaq olmaz. Bunun qəbul edilməsinin yeganə yolu budur ki, Allah hikmət sahibi və ədalətlidir. O, qadın və kişinin hüquqlarının məcmusunu və onlardan umulanları nəzərə alaraq ümumilikdə onlar üçün bir sıra hüquqlar müəyyənləşdirmişdir. Belə ki, bu hüquqların hər biri ayrılıqda nəzərə alınsa, ola bilər ki, bərabərlik anlaşılmasın. Əgər diqqət yetirsək, görərik ki, bəzi müsəlmanların feminizmə meyllənməyinə və İslam feminizmi yolunu tutmasına səbəb onların Qərbə yarımçıq baxışıdır. Bir halda ki, bizim seçilmiş dinimizlə onların seçdiyi din arasında fərq çoxdur. Bizim dinimiz Quranın aydın ifadəsinə görə təhrifdən amanda qalmış dindir. Başqasının əli onda dəyişiklik aparmağa qadir deyil. Halbuki Qərbdə mövcud olan dini mətnlər təhrif olunmuş, uydurulmuş mətnlərdən və bəşər zəkasının məhsullarındandır. Buna görə də onların dinin ruhunu, cövhərini seçməkdən başqa çıxış yolları yoxdur. Bununla da onlar öz xəyallarınca dinin həqiqətini dərk edirlər və hər bir kəs öz dərkini, qavrayışını din kimi qələmə verir. Bir halda ki, dinin ruhuna, həqiqətinə nail olmaq üçün, ilk növbədə insanın öz ruhunun paklıq və qüdsiyyətinin yüksək dərəcədə olması tələb olunur. İkincisi isə dini öyrənməyun xüsusi metodları var. Bu metodları mənimsəmək hər adama müyəssər olmur. Şübhəsiz, həqiqəti, Allahın istəyini, dini öyrənmək üçün ilk mərhələdə Allahın bəşəriyyətin hidayəti üçün göndərdiyi kitaba müraciət etmək lazımdır. Müsəlmanların səmavi kitabı Quran olduğundan və Allahın göndərdiyi şəkildə bizə gəlib çıxdığından ona müraciət etməklə əməli, əxlaqi və s. vəzifələrimizi öyrənə bilərik. Onunla yanaşı Peyğəmbərin (s) sünnəsi və məsum Əhli-beytin (ə) rəvayətləri Quranın bizim üçün aydın olmayan hissələrinin izahı kimi həlledicidir və ilahi göstərişləri öyrənmək üçün ikinci metod olaraq bizim köməyimizə çatır. Çünki Quranı öz şəxsi düşüncələrimizlə izah etmək bizim şəxsi baxışlarımızdan savayı bir şey olmayacaq. Bunları isə təbii ki, Allaha isnad etmək yanlış və narəvadır. Növbəti mərhələdə Allahın və məsumların (ə) fikirlərinə gedən yolu aydınladan digər vasitə - İslam ümmətinin yekdilliyi (icma) dayanır. Onunla yanaşı isə müqəddəs qanunvericinin fikrini bizə aydınladan digər qaynağa - əqlə yer verilir. Bir çoxlarını dindən yayındıram amil əqli hakim olaraq görmələridir. Hamının əqli hakim, arbitr kimi görməsi öz baxışlarını din kimi qələmə vermələrinə gətirib çıxartmışdır. Burada ayırd edilməli incə məqam budur ki, zəka aydınlaşdırıcıdır, hakim və hökm sahibi yox. Buna görə də bizi qanunvericinin, şəriət banisinin baxışlarına çatdırmadığı təqdirdə əsas və etibarlı ola bilməz.

Qısası, İslam cəmiyyətlərinin səadət və qurtuluşunun yeganə yolu öz dini kimliklərinə qayıtmaları, başqalarını yamsılamamaları, nurlu İslam hökmlərinə tabe olmalarıdır. Çünki Uca Yaradan məxluqatın müxtəlif cəhətlərinə hamıdan daha çox vaqifdir. O, həm hikmət sahibi, həm də ədalətli olduğundan insanlara layiq olmayanı onlara bəxş etməz. Əgər bu səviyyəyə çatsaq, o zaman tam aram olacaq, diqqətimizi mənasız şeylərə sərf etməkdənsə, əbədi səadətə yetmək istiqamətində sərf etmiş olacağıq.

**idrak.info**

# *Nümunəvi qadının üç bariz xüsusiyyəti*

***Həyat yoldaşı seçmək və ailə həyatı qurmaq hər bir insanın həyatında olan həssas dövrdür. Əgər bu iş üçün kifayət qədər diqqət ayırmasaq, çox sayda problemlə rastlaşa bilərik. (Tebyan)***

***Bu məsələ heç kəsdən gizli deyildir ki, yaxşı həyat yoldaşı Allah Təala tərəfindən olan böyük nemətdir. İnsanın səadətinə səbəb olar. Bu haqda Həzrət Peyğəmbər (s) buyurur: "Kişinin səadəti – saleh həyat yoldaşına malik olmaqdadır".***

***İnsan hər nə qədər həyat yoldaşı haqqında agahlıq əldə edərsə, müştərək həyatın daha şirin olmasına gətirib çıxardar. Bəs nümunəvi qadın necə olmalıdır?***

1. İmanlı. Həzrət Peyğəmbər (s) buyurur: "Hər kim qadınla gözəlliyinə görə evlənərsə, istədiyini onda görməz. Hər kim qadınla mal və sərvətinə görə evlənərsə, Allah onu həmin mal və sərvətlə tərk edər. İmanlı qadınla evlənin". Bu nurani hədisə diqqət edən zaman onun həqiqətlərini həyatda müşahidə edirik. Bu gün çox sayda ailə mal və sərvətə çatmaq niyyətilə qurular. Elə ona görə də davamlı olmur. Lakin o kəslər ki, məhz iman üzündən ailə qurublar, hər gün daha çox xoşbəxtlik hiss edirlər.

2. Ailə nəcibliyi. Həzrət Peyğəmbər (s) buyurur: "Zibillikdə bitən yaşıllıqdan (göyərtilərdən) çəkinin". Soruşurlar ki, bu kimdir? Həzrət (s) buyurur: "Alçaq ailədə və nəsildə dünyaya gələn gözəl simalı qadın". Əziz Peyğəmbərdən (s) gələn bu hədisə əsasən həyat yoldaşı gərək nəcib bir ailədən olsun ki, pak fitrəti mühit dəyişkənliyinə düçar olmasın. Əlbəttə aydındır ki, alçaq ailə dedikdə o ailələr nəzərdə tutulur ki, insanlıq sifətlərindən o cümlədən ağıl, dərk, ədəb, düşüncə və dindarlıqdan bəhrəsiz qalsınlar. Həzrət Peyğəmbər (s) buyurur: "Yaxşı və layiqli ailə ilə qohum olun. Çünki qanın təsiri vardır".

3. Az mehriyyəsi olan. Saleh həyat yoldaşının bariz sifətlərindən biri də mehriyəsinin az olması və az pul xərcləyənidir. Hər bir şəraitdə ailə iqtisadiyyatını idarə edə billəndir. Heç kəs həyat yoldaşının əziyyətə düşməsini istəməz. Belə qadın xeyir və bərəkətli qadındır. İmam Sadiq (ə) buyurur: "Qadının bərəkəti onun az xərcləyən olmasıdır". Əlbəttə bu mövzu əməldə də sübut edilmişdir ki, insan hər nə qədər özünü başqası ilə müqayisə etməzsə, daha mötədil həyata malik olar. Həzrət Peyğəmbər (s) buyurur: "Mənim ümmətimin ən yaxşı qadınları - ən xoş simalı və onların az mehriyyəli olanlarıdır".

# GENDER BƏRABƏRLİYİ, YOXSA CİNSİ AYRI-SEÇKİLİK?

Maraqlıdır ki, Allah mələklərə Yer üzərində bəşər xəlq etmək istədiyini xəbər verəndə diqqət çəkən bir ibarədən istifadə edir - xəlifə. Bəşərin yaşam yeri olacaq Yerdə xəlifəmi - canişinimi yaratmaq istəyirəm - deyir mələklərinə. Məni təmsil edəcəklər, Mənə tapınacaqlar, məskən salacaqları yerdə.

Xəlifə bütün bəşəri ehtiva edən sözdür, daşıdığı məna yükünə görə cinsiyyətə bölmür insan övladlarını. Leksik tərəfinə qalsa, düzdür, qadın cinsinə (ərəb dilində) aid bir ifadədir.

Gender bərabərliyi deyəndə, təbii ki, qadın və kişi arasında fizioloji bərabərlik nəzərdə tutulmur. Şübhəsiz ki, qadın və kişi arasında bəlli fiziki və psixoloji fərqlər mövcuddur. Demək, gender bərabərliyi prinsipi ancaq ailə və cəmiyyətdə qadın-kişi hüquq bərabərliyini müdafiə edir. Cinsi mənsubiyyətinə görə fərdlər arasında ayrı-seçkiliyə yol verməməyə, onlar üçün bərabər imkan və hüquqların nəzərdə tutulmasına çağırır.

Bəs İslam dini mövzuya necə yanaşır: gender bərabərliyi, yoxsa seksizm? Və ya bunların heç biri, tamam fərqli bir yanaşma?

İlk baxışda İslam dininin seksizmi və ya daha dar çərçivədə maskulizmi, ataxaqanlığı dəstəkləməsi rəyi formalaşa bilər. Amma dini təlimlərlə daha dərindən tanış olduqca, məlum olur ki, İslam dininin mövzuya münasibəti heç də belə deyil. Nə yaradılış, nə şəxsiyyət və nə də ali və ülvi dəyərlərə yiyələnmə aspektindən cinslərin digərinə hər hansı bir məziyyətini qəbul etmir.

Niyə biri digərindən daha üstün sayılsın ki? Nə bir səbəb tapmaq olur bunu təsdiq etmək üçün, nə də bir dəlil göstərmək mümkündür.

Hər ikisi qara torpaqdan xəlq edilib, biri qızıldan, digəri gümüşdən deyil (4: 1), Həvvanın Adəmin qabırğasından xəlq edilməsi fikri də ən azı bir neçə ayə ilə uyğun gəlmir (30: 21; 12: 72 ). Məlum ayələrdə bildirilir ki, qadın, kişi xəlq edilən maddədən yaradılıb, onun bədən üzvlərindən deyil.




Hər iki cins də ən gözəl biçimdə, mükəmməl formada xəlq edilib, heç bir zəka, düşüncə fərqi yoxdur aralarında (95: 4; 32: 7).

Biri şər mənbəyi, digəri xeyir mücəssəməsi sayılmır. Heç bir cins anadangəlmə şər toxumu daşımır özündə. Eyni əndazədə şüur və nəfsə sahibdir bəşər, qadın-kişi fərqi olmadan. Şər nəfsin ağlı üstələməsindən sonra həyata keçir, bu isə yaradılışla əlaqəli deyil, dünyaya baxışın, yaşam tərzinin nəticəsidir. Belə isə yaman iş görmə baxımından kişi və qadın eyni potensiyaya malikdir (2: 30. Ayə cinsləri ayırmır, hər ikisinin əlindən xata-bala gələ bilər, anlaşılır). Yeri gəlmişkən, Adəm və Həvvanın cənnətdən qovulmasının birbaşa səbəbkarı qadın - Həvva deyildi, hər ikisi eyni dərəcədə təqsirlidi qadağan edilmiş meyvəni yeməkdə (2: 36).

Əgər cinslərdən birinin digərinə nisbətdə hansısa üstünlüyü varsa (4: 34), bu, cinsi mənsubiyyətlərinə görə yox, ya müəyyən qədər fiziki gücə, ya da məhz yiyələndikləri ali keyfiyyətlərə, etdikləri yaxşı əməllərə görədir (49: 13; 16:97).

Qadın və kişi şəxsiyyət olaraq bərabərdirlər, bu, inkaredilməz bir mövzudur. Amma ailədaxili, ictimai vəzifə və səlahiyyət baxımından dartışılan bəzi məsələlər vardır ki, onların üzərindən mübahisəsiz ötmək mümkün deyil.

Ən əsas sorğu budur ki, İslam dinində qadın və kişiyə dair hansısa bir qanun qəbul edildikdə fizioloji fərqləri, cəmiyyətdəki iqtisadi, ictimai mövqeləri diqqətdə saxlanılır ya yox?

Cavab qətiyyətlə müsbətdir. Ona görə ki, din mütləq bərabərlik üzərində yox, ədalət və məntiq əsasında, hər iki cinsin xeyir və zərərini nəzərə alaraq hökm yürüdür. Buna görə də hər kəsi gücü, istedadı və bacarığı qədər mükəlləf sayır (2: 286). Bu qanun xaricində inanc adamı heç bir öhdəlik, vəzifə daşımır. Demək, aydın olur ki, fərdi və ictimai məsuliyyətlər və bunlara dair hüquqlar ancaq sadalanan səciyyələr nəzərə alınaraq müəyyən edilir, nəinki cinsi ayrı-seçkiliyə yol verilərək. Baxın, din qadının fiziki və psixoloji yönünü nəzərə alaraq ona, məsələn, cihadda iştirak etməyi zəruri saymır. Yaxud kişinin fiziki üstünlüyünü, iqtisadi imkanını nəzərə alıb, ailə xərclərini ona həvalə edir.

Bu da təbii ki, bəzi hallarda fərqli qanunların qəbul edilməsi ilə sonuclanır. Bəs bu fərqli qanun və səlahiyyətlərin sayı, əhatə dairəsi nə qədərdir? Cavab qəti deyil, bəzi yanaşmalara əsasən, bu fərq sayı bir və ya iki ola-olmaya. Amma əgər ənənəvi yanaşmaları əsas götürsək bu say 10-a qədər uzana bilər.

Gəlin, bu fərqli mövzuları dartışmazdan qabaq müştərək tərəfləri nəzərdən keçirək və görək əks cinslər İslam hüququnda eyni səlahiyyətləri hansı həddə bölüşürlər:

1. Qadın və kişi şəxsiyyət və ona aid olan bütün məsələlərdə bərabərdirlər və birinin digərinə heç bir məziyyəti yoxdur (4: 1; 49:13; 7:189).

2. Bəndəlik və ibadətetmə baxımından biri digərindən heç bir vəchlə üstün deyil (4: 124, 16: 97; 9: 72; 33: 35).

3. Etiqad seçimində hər iki cins tam sərbəstdir (9: 67, 68; 24: 26; 3: 43 ).

4. Demək olar ki, əksər məsuliyyət və vəzifələrdə eyni hüquqlara malikdirlər (2: 183; 24: 2, 31, 32; 5: 38).

5. İctimai-siyasi fəaliyyət göstərmək hüququna sahibdirlər (60: 10, 12).

6. Hər iki cinsin sərbəst iqtisadi fəaliyyətlə məşğul olmaq haqqı var (4: 7, 32, 33).

7. Ailədaxili hüquq bərabərliyi. Üzərinə düşən öhdəliklərə görə demək olar ki, ana daha çox məziyyətə sahibdir (29; 8; 17: 23, 24; 2: 83; 19: 14; 6:151; 4: 36; 31:14,15; 46:15).

Qayıdaq müzakirə predmetimizin mübahisəli tərəflərinə. Qeyd etdiyimiz kimi, burada artıq fikirlər haçalanır, müəyyən fərqlərin mövcudluğunu qəbul edənlər də var, etməyənlər də. Bu da bizə əsas verir ki, fərqliliyi birbaşa dinə isnad etməyib, hansısa fəqihin çıxarışı hesab edək.

Gəlin, söhbəti daha da uzatmadan, bir neçə müvafiq və müxalif baxışa nəzər salaq:

Mübahisə doğuran mövzulardan biri qanbahası məsələsidir. Əksər fəqihlər qeyd edirlər ki, qadının qan bahası kişinin qanbahasının yarısı qədərdir. Onlar bu fərqliliyi heç də qadın və kişinin şəxsiyyəti ilə əlaqələndirmirlər. Deyirlər ki, bu fərq yalnız iqtisadi əhəmiyyət kəsb edir. Belə ki, fiziki üstünlüyünə görə kişinin qazanc əldə etmə imkanı daha genişdir. Həm də ailənin xərclərini ödəmək kişiyə vacibdir. Qadının iqtisadi gəliri olsa da, onu ailəyə xərcləməyə bilər. Həmçinin, ailə qurarkən kişi qadına mehr də ödəməlidir. Bu da var ki, kişi ailənin təhlükəsizliyini təmin etməkdə daha böyük rol oynayır. Bütün bunları nəzərə alsaq, kişinin qətlə yetirilməsi ilə ailədə böyük bir boşluq yaranır. Din, bu boşluğu kompensasiya etmək məqsədiylə qadına nisbətdə kişinin qanbahasını iki qat nəzərdə tutur.

Amma müxalif baxış (görkəmli fəqih Yusif Saneini misal göstərmək olar) bu izahı qəbul etmir. Onların fikrincə, kişi və qadının qanbahası eynidir və qarşı tərəfin məlum hökmü müdafiə edərkən gətirdiyi arqumentlər tutarlı sayılmır. Çünki, həmin hökm azyaşlı oğlana, qoca kişiyə də aid edilir. Halbuki nə azyaşlı oğlan uşağı, nə də qoca kişi iqtisadi gəlirə malik deyil, ailənin maddi yaşayışını, təhlükəsizliyini təmin etməkdə heç bir rol ifa etmir. Həm də zaman dəyişib, indi kişilər qədər qadınların üzərinə də ağır iqtisadi yük düşür. Hətta ola bilər ki, bir ailənin və ya bir nəslin bütün maddi xərclərini bir xanım ödəsin. Belə isə, onun yoxluğu da bir ailənin başsız qalması, ağır iqtisadi problemlərlə üzləşməsi deməkdir. Üstəlik, müxalif tərəf bunu Qurani-Kərimlə də isbatlamağa çalışır.

Dartışılan mövzulardan biri də subay qızın ailə qurarkən atasından icazə almasının adətən şərt kimi göstərilməsidir. Halbuki oğlan üçün belə bir şərt nəzərdə tutulmur. Bir qrup fəqih (İslam hüquqçuları) bunu da qəbul etmir. Onlara görə, yetkinliyə çatmış, atdığı addım haqqında əhatəli düşünə bilən qızın atasından icazə alması məntiqli deyil. Əgər qız dini qaydalara zidd addım atarsa, şübhəsiz ki, onu bu işdən çəkindirmək (pisliklərdən çəkindirmək prinsipini əsas tutularaq) nəinki atasının, həm də anasının, bacı-qardaşlarının, qohumlarının da dini vəzifəsi sayılır.

Quranda (4: 34) qadının fiziki tənbihini nəzərdə tutan hökm də daha çox müzakirə olunan mövzular sırasındadır.

"...(Ey kişilər!) Özbaşınalıq etmələrindən qorxduğunuz qadınlara nəsihət edin;

(yola gəlməzsə) onlardan yatağınızı ayırın;

və (bu da səmərəli olmazsa) döyün!

Sizə itaət etdikdə isə daha onlara (əziyyət vermək üçün) başqa yol axtarmayın. Əlbəttə, Allah ucadır, böyükdür!" - ayədə deyilir.

Əvvala, görək, "özbaşınalıq"da məqsəd nədir?

İlk əvvəl bilmək lazımdır ki, kişinin evdə qadına hüquqi baxımdan heç bir göstəriş vermək haqqı yoxdur. Nə deyə bilər ki, mənim üçün yemək hazırla, paltarlarımı yu və nə də "evə qonaq gəlib, qarşılamaq lazımdır" və ya "qohum-əqrəbalarıma qayğı göstər", - kimi göstərişlər verə bilər. Hətta qadın körpəsinə süd verdiyinə görə, ərindən nəsə tələb edə bilər.



Demək, məlum olur ki, "özbaşınalıq" birbaşa ər-arvad münasibətlərinə, ailə ocağının qorunmasına yönəlib. Demək, bura qadının naməhrəm şəxsi evə gətirməsi, evdən kənarda qıcıq yaradan hərəkətlər etməsi, haqqında mənfi fikirlər yaratması və ya ailəni idarə etməkdə səhlənkarlıqlara yol verməsi, ailəyə aid mülkü dağıtması və s. aiddir.

Belə bir oxşar durum yarandıqda kişi nə etməlidir?

Qadına qarşı şiddət göstərməli, olmazın zülmlər etməli?

Yaxud qadını evdən çıxardıb, pis bir adla (məsələn, namusa xəyanət) onu başsız buraxmalı?

Və ya ondan şikayət edib məhkəmədə hamının gözü qarşısında rüsvay etməli?

Yoxsa, ailədaxili şəraitdə - yüngül tənbihlə bu məsələyə son verilməlidir?

İslam sonuncu metodu dəstəkləyir. Amma buna əsla məcbur etmir, ər çıxış yolu olaraq məhkəməyə də müraciət edə bilər.

Bununla belə, İslam dəstəklədiyi metoda belə qeydsiz-şərtsiz icazə vermir. Şübhəsiz ki, riayət ediləcək çərçivələr var: nə bir yer qanamalı və nə də göyərməlidir, qısası, tənbih çox xəfif olmalıdır.

Unutmayaq ki, fiziki tənbih istənilən halda xoşagəlməzdir, amma bu bəzən "ən pis"i "pis"lə aradan qaldırmaq məcburiyyəti üzündən irəli gəlir.

Yeri gəlmişkən, belə bir tənbih kişi üçün də nəzərdə tutulub, amma qadın bunun öhdəsindən gələ bilmədiyinə görə, bu, şəriət məhkəməsinə həvalə edilib.

Bunlardan başqa da bir neçə mübahisəli mövzular vardır ki, hamısına bu yazıda aydınlıq gətirmək uzunçuluq olardı. Odur ki, digər fürsətlərdə ən əsas məsələlərə yenidən qayıdacağıq.

**Niyam Aqil**

# DÜNYA FƏQİRLƏRİ AXİRƏT ZƏNGİNLƏRİDİR?

***"Yazdıqlarım düşündüklərimdir, yaşadıqlarımı isə həyatımdan oxuyun".***



***"Dünya fəqirləri axirət zənginləridir?!" Əgər belədirsə, söhbət hansı fəqirlikdən gedir? Suala cavab tapmaq üçün xırda bir araşdırma aparaq.***

***Nəzərimcə, fəqirlik və ya anladığımız kasıblığın tərifi dörd haldan xaric deyil:***

***- Fəqirlik, maddi baxımdan mal-dövlətsiz olmaqdır.***

***- Fəqirlik, mənəvi baxımdan yoxsulluq, mənəvi dəyərlərə sahib olmamaqdır.***

***- Fəqirlik, həm maddi, həm də mənəvi imkanlardan məhrumluqdur.***

***- Fəqirlik, özünü fəqir görmək, yoxsulluğunu etiraf etməkdir.***

1. Maddi baxımdan fəqirlik bir növ "əzab" sayılsa da, axirətdə "ləzzət" amili kimi görünə bilməz: Maddi durumu yaxşı olmayan insanlar heç də bütün hallarda sərvətli insanlardan aşağı deyillər. Hər iki qrupun ortaq mənəvi problemləri olması mümkündür və ya bir kasıb sağlamlıq, uzun ömürlülük və s. cəhətlərdən sərvətlidən üstün ola bilər. Həmçinin küfr edən və təkəbbürlü bir fəqir, təvazökar və imanlı sərvətlidən heç də dəyərli deyil. Bu anlamda sərvətlini fəqirdən fərqləndirən cəhət onun maddi imkanlarıdır. Deməli, maddi cəhətdən yoxsulluq tam mənada müsibət, bədbəxtlik, problem və s. kimi dəyərləndirilə bilməz. Belə isə, bu dünyanın kasıbına o dünyanın sərvətini – sırf bədbəxt, zavallı olduğu üçün - vacib saya bilmərik. Əlbəttə, maddi durum qeyd edilənlərə təsirsiz ötüşmür. Lakin bunu ümumiləşdirmək düzgün olmazdı. Məsələn, pul bütün problemlərin həlli deyil. Bu artıq təsdiqini tapmış bir iddiadır.

2. Mənəvi baxımdan kasıb və ya fəqir olan şəxs də axirətin zəngini ola bilməz. Mənəvi yoxsulluğu olan kəs, kamal və həqiqi insani dəyərlərdən, o cümlədən, əxlaq, ədəb, ədalət, haqq və s. kimi dəyərlərdən qismən məhrumdur. Halbuki, Allahın yaxşı insanlar üçün nəzərdə tutduğu Cənnətə "kamil", yəni mənəvi təkamülə çatmış insanlar gedəcəkdir. Orada artıq maddi dəyərlər rol oynamır. Yəni, mənəvi yoxsul fərzən, maddi cəhətdən zəngin olsa da, sərvəti onun karına gəlməyəcəkdir. Deməli, nöqsanlı və günahkar şəxslər nəinki axirət zənginləri, əksinə, bir çox axirət nemətlərindən məhrum olacaqlar.

3. Maddi və mənəvi fəqirliyin ikisini birdən yaşayanların axirətdəki durumu az da olsa məlum olur. Bəlkə də maddi çətinlik yaşadıqlarına görə Allah onlara xüsusi mükafat versin. Lakin mənəvi yoxsulluqda isə belə deyil. Allah onların mənəvi yoxsulluqlarından dolayı dindirəcəkdir. Ola bilsin ki, insan maddi cəhətdən yoxsul olması ondan asılı olmasın, amma mənəvi yoxsul və zəngin olması onun iradə və ixtiyarına tabedir. İnsanın mənəvi yoxsulluğuna mühit, ətraf, dostlar, valideynlər və s. səbəb olsa da, lakin bütün bunlar tam səbəb deyillər. Allahın lütfü, insanın iradə və ixtiyarı bütün bunları üstələyə bilər. Deməli, üçüncü qrup fəqirlər də mövzudan kənardır.

4. İnsan maddi və mənəvi fəqirlikdən əlavə digər bir fəqirliyə də malikdir. Öncə qeyd edim ki, maddi və mənəvi zənginlik insana "sonradan" qazandırılır. Yəni, dünyaya yeni gələn "insan" təkbaşına həm maddi, həm də mənəvi cəhətdən məhrumdur. Dünyada ömür sürdükcə həmin iki zənginliyə sahib olur. Nəzərdə tutduğum fəqirlik məhz həmin zati məhrumluqdur. İnsan dünyaya gələndə yoxsuldursa, sonradan "malik" olması reallığı dəyişmir. Ümumiyyətlə, insanın hər hansı mülkiyyəti həqiqi deyil. İnsanın sonradan qazandıqları onun zatən ehtiyacsız və zəngin olmasına dəlalət etmir və ya onu zati "fəqirlik"dən qurtarmır. Gəlin mövzunu bir az da genişləndirək.

İnsan həyatda qalmasında, sağlamlığında, təbiət hadisələrinin gedişatında təkbaşına tam səbəb deyil; bu bir danılmaz faktdır. Nə vaxtsa insanların ölümsüz olacaqlarına, xəstəliyin birdəfəlik məhv olacağına, zəlzələ, sel və s. kimi təbii fəlakətlərin sonlanacağına ümid bəsləmək məncə sadəlövlükdən başqa bir şey deyil. Bundan əlavə insan dünyaya gələrkən coğrafi mövqeyini, yaşayış mühitini müəyyənləşdirməkdə, cinsiyyətini təyin etməkdə, valideynlərini seçməkdə və s. rol oynamır.

Deməli, insan yaranış və yaşamda özü müyəssər deyil. Başqa ifadə ilə desək, yaranış və yaşam baxımından yoxsul və fəqirdir.

İnsan son qeyd edilən mənada yoxsulluğunu kəşf edib anlayarsa və "məhv olmaq" təhlükəsini aradan qaldırmaq üçün "zəngin"ə üz tutarsa, həmin şəxs sözsüz ki, axirətin zəngini olacaq.

Zənnimcə, ayə və hədislərdəki "fəqirlik" də əksər hallarda məhz son mənanı çatdırır. Aşağıdakı ifadələrə diqqət edək;

"Ey insanlar! Siz Allaha möhtacsınız. Allah isə Zəngindir, Həmd ediləndir".

(Fatir-15)

Peyğəmbər (s) buyurur: "Fəqirlik Allah yanında bir xəzinədir. Ona yalnız sevdiyi mömin bəndələri giriftar edər".

Peyğəmbər (s) buyurur: "Yoxsulluq mənim fəxrimdir" ?!

Həzrət Əli (ə) buyurur: "Fəqirlik, imanın zinətidir" ?!

Ayədə bütün insanların fəqir, Allahın isə zəngin olduğu qeyd edilir. Halbuki, bir çox insanlar maddi və ya mənəvi cəhətdən zəngindirlər. Deməli, ayədə məqsəd son qeyd etdiyimiz fəqirlikdir. Yəni, bütün insanlar varlıqlarında, yaşamlarında (burada məqsəd məhv olmamaqdır) Allaha möhtacdırlar.

Hədislərdə isə fəqirlik "fəxr" və "zinət" kimi tanıtdırılır. Sizcə, yoxluq zinət və fəxr ola bilərmi?! Fəqirlik nöqsan və yoxluqdur. Sərvətin, mənəviyyatın olmamasıdır. Fəqirlik bir şey deyil ki, fəxr və zinət səbəbi olsun. Deməli, yuxarıdakı hədislərdə fəqirlikdən məqsəd maddi və mənəvi yoxsulluq olmamalıdır.

İnsan özünü nə qədər fəqir və Allaha möhtac bilərsə, həmin qədər də Allaha doğru can atacaqdır. Allaha itaət edəcək, kamala doğru addımlayacaqdır. Belə bir fəqirliklə fəxr etmək, belə bir fəqirliyin zinət olması məqbuldur. Artıq burada yoxluqdan, nöqsandan söz getmir. Çünki, bəndə bəndə olduğuna, məxluq olduğuna görə qınana, tənqid edilə bilməz. Allahın "allahlığı" onun ehtiyacsız olmasındadırsa, bəndənin də "bəndəliyi" onun möhtaclığındadır.

Nəticə etibarı ilə qeyd edim ki, özünün zatı cəhətdən fəqir görmək, bunu dərk etmək və "Zəngin"ə doğru hərəkət etmək zənginliklə nəticələnəcəkdir. Çünki, məqsəd və hədəfimiz hər cəhətdən zəngin olan Allahdır.

**Xəyal Tofiqoğlu**

# MÖMİNİN ÜÇ SİFƏTİ:

## *Biri - Allahdan, biri - Peyğəmbərdən (s), üçüncüsü isə İmamdan (ə)*

***İmam Rzadan (ə) gələn hədislərin birində oxuyuruq: "Mömin, mömin deyildir, məgər o halda ki, onda bu üç sifət olar: bir sifət Allahından, bir sifət Peyğəmbərindən (s) və bir sifət də İmamından (ə)".***

*Həzrət Peyğəmbər (s) buyurur: "Özünüzü əxlaqla və İlahi sifətlərlə xarakterizə edin". Yəni, baxın görün Allah necədirsə, siz də özünüzü o cür edin. İnsan əgər Allah rənginə boyanmazsa, bəndə olmaz. Həzrət Peyğəmbər (s) ona görə Allah bəndəsi idi ki, Allahın bütün sifətlərini həyatında əks etdirirdi. Əxlaqı və rəftarı İlahi rəngdə idi. İnsan o zaman ki, özünü Allaha bənzədər, o zaman kəramət və möcüzə edə bilər.*

*Həzrət Peyğəmbər (s) buyurur: "Əgər şeytanlar insanın ürəyini ixtiyarlarına almasaydılar, onlar qeyb aləmini və batinlərini müşahidə edə bilərdilər".*

*Bəs mömin Allahdan hansı sifəti götürməlidir? Sirri saxlamaq. Bəs niyə bu qədər sifət içərisində məhz sirri saxlamaq?*

*Yəni, mömin gərək sirr saxlayan olsun və əgər saxlaya bilməzsə, bu, onun zəifliyindən xəbər verər. Sirri gizlətmək İlahi sifətlərdən biridir və Allah bizimlə bağlı sirləri gizlədər ki, bir yerdə yaşaya bilək. Əgər belə olmasaydı, heç kəs bir-birinin yanında rahat yaşaya bilməzdi. Belə ki, Əmirəl-möminin (ə) buyurur: "Əgər bir-birinizi tanısaydınız və ürəkləriniz bir-biriniz üçün məlum olsaydı, cənazələriniz yer üzərində qalardı və bir-birinizi dəfn etməzdiniz".*

*İmam Sadiq (ə) buyurur: "Dostuna o sözləri de ki, əgər bir gün səninlə düşmən olsa, onları sənin əleyhinə istifadə edə bilməsin".*



*İnsanlarla mehriban olmaq Peyğəmbərin (s) sifətidir.*

*İnsanlarla xoş rəftar və mehriban olmaq Peyğəmbərə (s) aid sifətlərdəndir. Bu haqda Allah buyurur: "Həqiqətən, sən (bütün insani əxlaq fəzilətlərinin cəm olduğu) böyük bir əxlaqa maliksən". ("Qələm" 4).*

*Əgər onun əxlaqı gözəl olmasaydı, bu qədər inkişaf etməzdi. O qədər təvazökar bir insan idi ki, küçədə gedən zaman uşaqlara salam verər və onlarla oyun oynayardı. Həzrət (s) buyurardı: "Necə ki, Allah mənə vacibatları yerinə yetirmək üçün əmr vermişdir, insanlarla mehriban olmağım üçün də əmr vermişdir". O, insanlarla mehriban olduğuna görə onlar Həzrətin (s) ətrafına toplaşardılar.*

*Səbirli olmaq İmamların (ə) sifətidir.*

*Həqiqi mömin gərək səbirli və hövsələli olsun. Əgər ərlə arvad səbirli olarlarsa, xoşbəxt olarlar. Əgər ictimai məsələlərdə səbirli olarsa, o zaman irəli gedə bilər. Əcələ və tələskənlik insana ancaq ziyan vurar. Səbir insanın həyatında aparıcı rol oynayar. Elə ona görə də Məsum İmamlarımız (ə) bizi həmişə səbirli olmağa dəvət edərlər.*

*Beləliklə deyə bilərik ki, əgər həqiqi mömin olmaq istəyiriksə, gərək bu üç sifəti unutmayaq və onlara yiyələnək. Bu sifətlər: sirri gizlətmək, mehriban, əxlaqlı olmaq və səbirli olmaqdır.*

# "QIRX YAŞIMDA NAMAZ QILACAM"



***Yəqin ki, çoxlarınız bu sözü eşitmisiniz, - "Qırx yaşımdan sonra namaza başlayacam".***

Bəlkə bəziləriniz hələ də bu iddianın tərəfdarıdır. Rəngarənglik və çalarlarının durmadan artdığı müasir bir dünyada, insan fəaliyyətlərinin aşıb-daşdığı, problemlərin üst-üstə qalandığı, bir çoxlarının "başını belə qaşımağa" vaxt tapmadığı bir dönəmdə namaz (və ya oruc tutmaq) kimi ağır ilahi məsuliyyəti də öhdələmək nə dərəcədə düzgündür? Hələ öhdəsindən gəlinib-gəlinməyəcəyi də sual altındadır.

Uşaqların qayğıya, yeniyetmələrin təhsilə, gənclərin ailəyə, karyeraya ehtiyac duyduğu vaxtda bir də namaz qılmağın nə lüzumü var? Əgər namaz qılmaq ilahi göstərişdirsə, qırx yaş çox münasib bir vaxtdır. Ona görə ki, təhsildən, karyeradan, ailə qayğılarından, məişət problemlərindən az da olsa, başı ayılma vaxtı qırx yaşlarına təsadüf edir. Həmin yaşdan sonra namaz qılmaq elə də çətin olmaz. Bu, həm də Allah yanında heç namaz qılmayıb üzü qara olmaqdan yaxşıdır.

Ancaq qeyd edilənlərin elmi və məntiqi baxımdan nə dərəcədə düzgün və ya yanlış olduğu bizə tam məlum deyil. Doğurdanmı bu belədir? Bu iddianın bir əsası varsa, niyə diqqətdən kənarda qalıb? Görəsən, Allah və peyğəmbəri (s) niyə bütün bunları nəzərə alıb elə namazı qırx yaşdan sonraya yazmayıblar?!

Gəlin, sualı cavabdan öncə kiçik bir haşiyə çıxaq. Ola bilsin ki, cavabımıza qismən də olsa təsirli olsun.

Şübhəsiz ki, hər bir insanın həyatında müəyyən bir dəyərlər sistemi var və bu sistemdə dəyərlər çoxdan aza görə dəyişir, yəni ən önəmlilər mühümlərdən öndə gəlir. Məsələn, bir şəxs öz karyerasını sevir, ona dəyər verir, lakin ailəsi onunçün daha əhəmiyyətlidir. Bir sözlə karyerasını ailəsinə qurban verməyə hazırdır.

İndi, namazı "təxirə" salanlara belə sual ünvanlanır ki, namaz qılmaq dəyərdirmi? Əgər sizin üçün bu dəyərdirsə, həmin dəyərlər sisteminin hansı pilləsində qərarlaşır?

Namazı "təxirə" salmağınızdan məlum olur ki, ən azından namaza dəyər verirsiniz, yoxsa bir çoxları kimi heç namaz qılmazdınız. Digər tərəfdən namaza az dəyər verdiyiniz anlaşılır, yoxsa onu "təxirə" salmazdınız.

Bəs, əslində namazın dəyəri nə qədərdir və ya onu təxirə salmaq olarmı?

Təsəvvür edin, bir nəfər sağlamlığına qırx yaşdan sonra önəm verəcəyini, bu yaşadək istədiyi kimi yeyib-içəcəyini deyir. Sizcə, bu məntiqlidirmi? Sağlamlıq insan üçün əvəzedilməz bir dəyərdir. Onu əldən verdikdən sonra yenidən qaytarmaq bir çox hallarda mümkünsüz, bəzi vaxtlar da isə qismən mümkündür. Belə isə, insan niyə qırx yaşından sonra sağlamlığının qeydinə qalmalıdır?! Deməli, ağıllı insan ağlı kəsdiyi gündən sağlamlığına diqqət etməlidir.

"Qırx yaşımda namaz qılacam" deyənlərin də sözü yuxarıda qeyd edilən qədər məntiqsiz və ağıla batan deyil. Ona görə ki, namaz qılmağın öz missiyası var və onu gerçəkləşdirmək üçün Allahın nəzərdə tutduğu vaxtdan başlamaq lazımdır. Namaz insanı heyvani, maddi və aciz həyatdan qoparıb ali, mənəvi və istedadların çiçəkləndiyi bir həyata yüksəltmək missiyası daşıyır. "Qırx yaşımda namaz qılacam" deyənlər, əslində bu missiyadan xəbərsizdirlər, yaxud namazın özünü məqsəd görürlər. Allah demir ki, namaz qıl!... Allah deyir ki, namazla ucal, kamala çat!

Bəlli yaşdan sonra insanın bu çətin yolu getməsi, namazla ucalması olduqca çətin, bir çox hallarda mümkünsüzdür. Qırx yaşından sonra çox güclü idmançı olmaq istəyən zəif, xəstə və cılız bir insanın arzusu kimi.

Belə olan halda namaza elə müəyyən olduğu gündən başlamaq lazımdır. Əks təqdirdə, ali dəyərlərdən birini, bəlkə də ən dəyərlisini, mənəvi kamalı tamamilə və ya qismən əldən verəcək.

Digər tərəfdən sərvət, vəzifə, ailə, ictimai mövqe və s. kimi dəyərləri əmək sərf etməklə qazanmaq nə qədər önəmlidirsə, ibadət edib mənəvi kamal əldə etmək də bir o qədər önəmli, bəlkə ən önəmlidir.

Əlbəttə, məqalədə namaz şərti olaraq götürülmüşdür. İlahi göstərişlərin hamısı eyni funksiyaya malikdir və onlar arasında ayrı-seçkilik etmək düzgün olmazdı.

**Xəyal Tofiqoğlu**



# SƏNGƏR MƏSƏLƏSİ

*Apologetlərin (dini dünya görüşündə olan zahiri problemləri müdafiə edənlərin) ən çətin vəziyyətə düşdüyü məsələ "teodiseya" (Allahın ədaləti, ilahi ədalət) məsələsidir. Nədir bu məsələ? Bir neçə xırda sualla izah edək:*

*- Ay qardaş, dünya iyrəncilikIərlə, əyriliklərlə, zülm və haqsızlıqlarla doludur, bəs haradadır Allah, niyə müdaxilə etmir?*

*- Ay inanclı, Somalidə insanlar acından siçovul kimi qırılır, dünyanın müxtəlif yerlərində məsum körpələr qanına qəltan olur, bəs Yaradan (əgər varsa) niyə bütün bunlara bir çarə etmir?*

*Edə bilmirsə, demək həddindən artıq aciz Allahdır və bizə belə bir Allah lazım deyil. Yox, əgər çarə edə bilir, amma etmirsə, deməli, Allah zalımdır, axı özü deyir ki, zülmü görüb susan da o zülmdə şərikdir.*

*Bu sualların cavabı varmı?*

*Təəssüflər olsun ki, bu tip suallara verilən ən populyar "cavab" o qədər də ürəkaçan deyil:*

*"A kişi, sənin qəlbin möhürlənib, Allahsızın biri Allahsız, ruhun xəstədir, başdan-başa zülmətdəsən deyə belə suallar verirsən, sənə cavab lazım deyil, onsuz da qanmayacaqsan, belə sərsəmləmələrinə görə Allah səni qır qazanında yandıracaq!!!"*

*Düşünürəm ki, belə aqressiv yanaşmalara son verməyin zamanı gəlib artıq, insanların haqlı və onları narahat edən sualları var, bəşər düşünür, narahatdır, yarası var, soruşur, məlhəm axtarır. Belə "cavablarla" yaranın üstünə duz səpməyək. Onlara hər hansı bir yarlıq yapışdırmağa tələsməyək, cavabımız varsa, buyuraq, yoxdursa, sadəcə susaq. Ən düzgünü də budur!*

*Ümumiyyətlə, imam Həsən Əskəridən (ə) olan bir hədisdə də deyildiyi kimi, bunu (apologiyanı) bacaran etməlidir, hər yoldan keçən deyil. Dolayısıyla, narahat olmayın, bütün inanclıların belə bir vəzifəsi, məsuliyyəti yoxdur. Belə suallar gördükdə dərhal əl-ayağa düşüb qarşısına bir ayə çıxarmaq, hədis yazmaq, cəhənnəmlə hədələmək lazım deyil, sadəcə bir kənara çəkilib bu haqda oxumaq, öyrənmək lazımdır. İnanın ki, su az olarsa, çirkabı təmizləmir, əksinə, daha da bulaşdırır. Elə isə su olmaq yetərli deyil, kifayət qədər su olmaq lazımdır ki, çirkabı təmizləyə biləsən!*



*Nə isə, keçək mətləbə.*

*İlk olaraq onu deyim ki, bu insan oğlu nədənsə həmişə öz xətalarını bir başqasının boynuna atmaqda çox mahirdir. Uğur qazandığı, bəşərə nəsə fayda verdiyi zaman fəxarətlə: "bunu MƏN etdim" - deyə hayqıran insan iş çətinə düşəndə: "Bəs hardadı Allah" - deyə çığıra-çığıra hər şeyi onun boynuna atmağa can atır. (Məsələn, mümkünmüdür ki, Nyuton çıxıb desin ki, cazibə qüvvəsini o yox, Allah kəşf edib?!... Əksinin isə bir xeyli örnəyi var!)*

*Bu misra haqqında da azca düşünün:*
*"Kimlərsə acından ölür,*
*sən öz payınla doymursan deyə".*

*Onlar: "Allah hardadır, niyə görmür?" - deyə sual edir? Olsun. Biz də soruşuruq:*

*1. Kim deyib ki..., və ya belə olsun: Dünyanı bu bəlaların çəngindən niyə məhz Allah xilas etməlidir?! Niyə insan özü yox, məhz Allah?! Maraqlıdır, O, nə vaxtsa insana belə bir vəd veribmi?!*

*Yadımdadır, bir dəfə bir dini tədbirdə şəhərin axundu qalxdı və belə dua etdi: "Gəlin dua edək ki, zamanənin imamı tez gəlsin və Qarabağımızı işğaldan azad etsin!" Tədbirə qatılan icra hakimiyyətinin nümayəndəsinin haqlı etirazı çox gecikmədi: "Axund əmi, bu nə duadır, anlamadım, sizin olan problemi niyə imam həll etməlidir ki?!"*

*2. Kim deyib ki, Allah mütləq hər məzlumun yanındadır və ona yardım edəcək?! Belə bir ilahi vəd varmı?! Xeyir, mənim yadıma gələn ancaq belə bir məzmun var: "Mən hər məzlumun deyil, zülmə qarşı mübarizə edən məzlumun yanındayam, hər zaman da olacağam!"*

*Sənə zülm olunsun, sən yıxıl evində mışıl-mışıl yat, oyananda şikayətlən ki, bəs niyə Allah mənə yardım etmədi? Absurd deyilmi?*

*Dərd budur ki, indi zülmə qarşı mübarizə etməyən, mübarizə əzmini itirmiş aciz, tənbəl bir bəşər formalaşıb (və ya formalaşdırılıb). O, Allahı yanında görmürsə, səbəb elə özündədir.*

*3. Siz Yaradandan konkret necə müdaxilə gözləyirsiniz, məsələn, əlinə silah alıb gəlib zalımları qırıb-tökməlidirmi, ya necə? Ya göylərdən daşmı yağdırmasını istəyirsiniz?! Əgər onun əlini uzadıb bəşəriyyətə kömək edəcəyini gözləyirsinizsə, bəs din nədir?! Bəlkə elə din həmin o ilahi əldir, fəqət biz yekəxanalıq edib o əli tutmaqdan imtina etmişik!!! Ola bilməzmi?! Əgər biz o əldən üz döndərmişiksə, daha nə haqla Allahı axtarır, onu günahlandırırıq?!*

*Nə bilmək olar, bəlkə də ağıl insana düz yolu tapmaq üçün deyil, düz yolu göstərəni tapmaq üçün verilmişdir.*

*Bu apologiyanı hələ bir xeyli uzatmaq olar, amma məncə düşünmək üçün hələlik bu suallar da kifayətdir.*

*Əslində bizim elə bütün işlərimiz bu haldadır, yalnız giley-güzar, yalnız*

*günahı başqalarında axtarmaq. Təhsilimiz niyə bu gündədir, səhiyyəmiz niyə bərbaddır, torpaqlarımız niyə işğal altında qalıb, niyə, niyə, niyə?... Bu sualları verməkdə haqqımız da var tutaq ki, fəqət bütün bu çirkabın təmizlənməsi üçün biz özümüz (!) nə etmişik, nə edirik? Konfutsinin sözü olmasın, dayanmadan qaranlığı lənətləyirik, bəlkə qalxıb kiçik bir şam yandıraq?!*

*Haqlı olaraq "necə?" deyə soruşacaqsınız, deyəcəksiniz ki, tək başına o şamı yandırmaq olarmı? "Bir şam bu boyda qaranlığa nə edə bilər axı?" - deyə də soruşa bilərsiniz. Mən də örnək göstərəcəyəm sizə, deyəcəyəm ki, olar, həm də çox gözəl olar!*

*Şəhid Mübariz qınamadı, deyinmədi, lənətləmədi, problemi heç Allahın boynuna da atmadı, təkbaşına qiyama qalxdı və elə bir şam yandırdı ki, əminliklə demək olar ki, bu şam qiyamətədək şölələnəcək.*

*Oldumu? Bəli! Bu da sizə örnək. Yox, yox, tez Qarabağa getmək, səngərlərə düşmək-filan planları cızmayın! Həyatın hər sahəsi bir səngərdir əslində, hər yer səngərdir, demək ki, hər yerdə qəhrəman olmaq olar. Bir az səs-küysüz olacaq, amma olsun.*

*Alimin, yazıçının səngəri, məsələn, yazı masasıdır; alim yazılarıyla döyüşəcək, onun snayperi qələmi olacaq; güllələrsə - sözləri, fikirləri.*

*Filosof yanlış iyrənc fəlsəfi axınların qarşısında dayanacaq, elə masasındaca, qələmi ilə, yazısı ilə, kitabları ilə.*

*Psixoloq xalqının psixologiyasının sağlam olmasına çalışacaq, stimul verəcək, yıxılmağa qoymayacaq, elə masasındaca, konsultasiyaları ilə, söhbətləri ilə.*

*Müəllim yaxşı dərs deyəcək.*

*Nazir xalqa yaxşı xidmət edəcək.*

*Ustası, fəhləsi möhkəm ev tikəcək və bu da onun səngəri - vətəni, milləti üçün mübarizəsi olacaq.*

*Səngərə qaçmaq lazım deyil, hər yer səngərdir əslində - hər yer! Hətta deyərdim ki, yazı masasının arxasındakı səngərdə döyüşmək daha çətindir, çünki bu vaxt sənin etdiyin qəhrəmanlıqları Allahdan başqa heç kim bilmir. Kütlə öz qəhrəmanını yalnız meydanlarda, döyüş səngərlərində görür, kütlənin ən böyük problemi də elə budur. Hətta bununla da bitmir, bəzən kütlə döyüş meydanında görmədiyi filosofuna, psixoloquna, aliminə çamur da atır, qorxaqlıqda ittiham edir... Olsun. Sən bütün bunları boş verəcəksən, axı Allah rizası üçün edirsən etdiklərini.*

*Qalx və şamını yandır!*

*Və ya başqa bir örnək:*

*İmam Hüseyn (ə) Aşurada cəmi 72 nəfərdən ibarət bir qoşunla elə bir şam yandırdı ki... İlahi!!! Əsrlərdir nəhəng-nəhəng imperiyalar üfləyib, üstünə su töküb, dəryalar axıdıb o şamı söndürməyə çalışırlar, sönürmü?!...*

*Əsla!!!*

*Məsələ budur: Sən burax bu giley-güzarları, heç başqalarının "səngərində" gözün qalmasın, gir öz "səngərinə", sakit-sakit, əzmlə, usanmadan öz vəzifəni icra et, gerisini Allaha burax, O Özü bərəkət verəcək!*

*Təsəvvür edin, hərə öz "səngərinin" qəhrəmanı olsaydı, dərdimiz qalardımı?*

*İlqar Kamil*

# İBLİSİN FƏRYADI...



*Allah: İblis! Qalx ayağa, tərk et mənim dərgahımı, qovuldun!*

*İblis: İnana bilmirəm... nəyə görə? Min illər sənə ibadət etdikdən sonra, budurmu mənim mükafatım; əldə edəcəyim haqqım, yoxsa budurmu sənin ədalətin?! Bir ADƏM üçünmü məni qovursan? Dəyərmi?! Qan tökən, cinayətkar, varlığına şəkk edən, yoxluğuna dəlil gətirən adəm üçünmü qovursan məni İlahi?! Yoxsa torpaqdan yaranmış Adəmə əyilmədiyim, onun palçığına yenilmədiyim üçün qovursan məni? İndi bəs necə olur axı, adəmin hər günahını əfv edirsən, hər nə etsə də rəhmət qapını yenə onun üzünə örtmürsən, yüz kərə sındırdığı tövbəsini belə tez bir zamanda qəbul edirsən, bəs mənimlə niyə belə etmədin? Sən məni rüsvay etdin, lənətlədin, mənim düşmən olduğumu hər kəsə söylədin?!*

*ALLAH: Ey İblis! Sənə dedim Adəmə səcdə et, Mənə xatir ona səcdə et, qürurlanma, lovğalanma, sən Mənim bildiyimi bilməzsən! Amma sən nə etdin, Mənə qarşı çıxdın; sözümdən çıxdın, Mən isə yenə sənin canını bağışladım; canını almadım. Elə bilirsən, bilmirdim ki, artıq Mənə ibadət etməkdən yorulmusan, dərgahımdan çıxmağa, bəhanələr axtarırsan?! Dedin min illər Sənə ibadət etmişəm, əcrimi istəyirəm! Dedim get, məlum günə (zühura ya qiyamətə) qədər sağsan. Dedin bir də istəyirəm, dostlarını əlindən alam, qoymayam kimsə Sənə yaxın gəlsin, bu da olsun mənim əcrim! Dedim olsun, kimi bacarırsansa çıxart Mənim haqqımdan; uzaq et dərgahımdan. Bəli, budur Mənim ədalətim! Budur Mənim mərhəmətim! Amma unutma ki, pis olan yenə sənsən, ey inadkar İblis, ey xəbis! Məgər elə bilirsən ki, tövbə edəcəyin günü gözləmirəm Mən, Sənin Mənə dönəcəyin günü istəmirəm?! Gözləyirəm, istəyirəm! O sənsən ki, təkəbbüründən od-tutub yanırsan, heç Mənə tərəf bir dəfə belə dönüb, baxmırsan! Ay yazıq, Mən elə həmin Allaham, çox mehriban və çox bağışlayan. Sən isə həmin İblissən ki, hər zaman önə qaçmısan, hər an üstün görünməyə çalışmısan, mələklərə gedib pişnamaz qalmağın belə, bu hissindən ötəri idi, Mənə etdiyin ibadətlərin də, bilirdim ki, ötəri idi.*

*Bəli, o İblisin fəryadı, bu Allahın cavabı.*

*(Diqqət: Məqalə xəyal qüvvəsinə istinadən yazılıb, ayə və hədislərdən sadəcə ilham alınıb. Müəllif.)*

*Dr. Hacı Tofiq Əsədov*

# *Kim Allahı sevindirə bilər?*

*Həzrət Peyğəmbər (s) buyurur: "Hər kəs mömini sevindirərsə, məni sevindirmişdir, hər kim məni sevindirər, Allahı sevindirmiş olar".*

*İmam Sadiq (ə) buyurur: "O zaman ki, Allah mömini qəbirdən çıxardar, misali bədən də onunla bir yerdə qəbirdən çıxar. O zaman ki, mömin Qiyamətin dəhşətli səhnələrini görər, həmin misal ona deyər: "Qorxma, sənə Allah tərəfindən müjdə vardır ki, sevinilə si və kəramətlidir". Mömin ona deyər: "Allah sənə rəhmət etsin. Necə gözəl yoldaşsan, qəbirdən mənimlə bir yerdə çıxdın və daima Allah tərəfindən olan kəraməti mənə müjdə verirsən. Sən kimsən?". Həmin misal deyər: "Mən həmin o sevincəm ki, mömin qardaşına etmişdin, Allah məni (həmin sevincdən) yaratmışdır ki, sənə müjdə verim"".*

*Mömin qardaşı sevindirməyin savabı çox böyükdür və bu mövzuya hədislərdə və Quran ayələrində çox rast gəlirik. Bu hədislərdən və ayələrdən belə başa düşmək olur ki, Allah yanında ən sevimli ibadətlərdən biri də mömin qardaşı sevindirməkdir.*

*"Üsuli-Kafi"də Həzrət Peyğəmbərdən (s) belə bir hədis vardır: "Allah yanında sevimli əməl - mömini şad etməkdir". Məsumlardan gələn hədislərin bir çoxundan oxuyuruq: "O kəs ki, mömini şad edər, ancaq bir nəfəri sevindirməmişdir, əslində biz Əhli-beyti (ə) sevindirmişdir. Hər kəs bizi sevindirər, Allahın Peyğəmbərini (s) sevindirmiş olar".*

*Hədislərin bəzisində mömini şad etməyin bəyənilmiş bir ibadət olması ilə yanaşı, günahdan uzaq olmasına da işarə edilmişdir. Ola bilsin ki, bəzi müsəlmanlar möminə yaraşmayan əməl ilə qarşı tərəfi sevindirməyə cəhd edərlər. Bəziləri zarafatdan istifadə edər və düşünərlər ki, başqalarının abrını tökməklə mömini sevindirə bilər. Bu əməl - bəyənilməyən əməllər sırasındadır.*

*Quranda olan şadlıq və fərəh.*

*Fərəh - qəm və qüssənin əksidir. Bir növ qəlb ləzzətidir ki, ruh ona çatmağa meyl edir. Quranda fərəh bir neçə mənada işlənmişdir:*

*1. Üsyan və bədməstlikdir ki, Allah onun haqqında buyurur: "Allah fərəh əhlini sevmir".*

*2. Razılıqdır.*

*3. Sevincdir, xoşhal olmaqdır.*

*Hər bir halda fərəh sevinən insanlara aid edilir. Birinci mənada verilən fərəh əhli isə İlahi sevgidən uzaq olanlar, yəni Qarun nəzərdə tutulur. O, Bəni İsrailə hökumət edir və onlara zülm edirdi. Allah ona xəzinələr vermişdi ki, açarlarını güclü kişilər güclə həml edirdilər. Bəni-İsrail (ə) Qaruna deyir: "Xəzinələrə görə sevinmə ki, Allah bu cür insanları sevməz". Burada fərəh, dünya sərvətindən yaranan fərəhdir. Bu cür fərəh Allah sevgisinə mane olar.*

*Quranda adı çəkilən sevincdən biri də İlahi fəzl və bəxşişə görə olan sevincdir. Bu növ şadlıq sevincin ən yaxşı növündən hesab edilir.*

*Nəticə üçün deyə bilərik ki, əgər Allahı və İlahi övliyaları sevindirmək istəyirsinizsə, mömini sevindirin. Mömini sevindirmək həm Peyğəmbəri (s) və həm də Allahı şad edər.*